QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 216 (6180) 3 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Haqqa, ədalətə gedən yol - QƏLƏBƏLƏR YOLUDUR!

## Prezident İlham Əliyev: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir"

Bax2



## İqumen Aleksi: Mehriban Əliyevanın mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi üzrə fəaliyyətinin parlaq nəticələrini mən gözlərimlə görmüşəm

Bax 7



İtaliyanın Merano şəhərindəki Müqəddəs Nikolay pravoslav kilsəsinin baş keşişi, İqumen Aleksin (Nikonorov) "Nezavisimaya qazeta"da müsahibəsi dərc edilib.AZƏRTAC xəbər verir ki, müsahibədə Aleksi ata qeyd edib ki, Qafqazda xristianlıq faktiki olaraq, bu dinin yarandığı vaxtdan ...

## Ceyhun Bayramovla Sergey Lavrov arasında telefon danışığı olub

Bax 7



Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub...

Bax 5



## Rasim Quliyev: "Putin ermənilərin yalvardığını görməkdən məmnundur"



## Paşinyan yenə biabır oldu!

## Mikael Minasyan: "Nikolizm Ermənistanı xarabalığa çevirdi"

Bax 14



Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan general-mayor Vitali Balasanyanın mesajına cavablandırıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə keçmiş səfir öz sosial şəbəkə hesabında paylaşım edib...

## Mövlud Çavuşoğlu: "Azərbaycanın istəyi ilə Türkiyə bölgədə atəşkəsə nəzarəti də həyata keçirəcək"




Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qərarlarına əsaslanan danışıqlar yolu ilə həllini hər zaman dəstəkləyib...

Bax 7



Bax 12

## Bəşəriyyət üçün təhlükəli epidemiya: qalib gələ biləcəyikmi?

*Koronavirus epidemiyasını yarımçıq tədbirlərlə məğlub edə bilərikmi? Yoxsa dayanaq və...*

## DTX livanlı muzdlu-terrorçunu məsuliyyətə cəlb etdi

Bax 8



## Daxili düşmənlərin erməniçilikləri necə davam edir?



Bax 13

## Müharibə və Ermənistan iqtisadiyyatı



Bax 11

## Ronaldo "Golden Foot" mükafatına layiq görülüb




Bax 16

# Haqqa, ədalətə gedən yol - QƏLƏBƏLƏR YOLUDUR!

## *Prezident İlham Əliyev: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir"*



### *Rəsmi xronika*

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.**

***Dekabrın 1-i Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciətində bu xoş müjdəni çatdıran Ali Baş Komandan deyib: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir.***

Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Dövlət başçısı qeyd edib ki, ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq: "İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq. Əziz laçınlıları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, gözaydınlığı verirəm. Laçın işğal olunanda bu rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. İndi Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. Əlbəttə ki, laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq bizim əsas vəzifələrimizdən biri olacaqdır. Həmçinin biz çalışacağıq ki, keçmiş məcburi köçkünləri işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytaraq".

### "Biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq"

Dövlət başçısı erməni işğalçılarının işğaldan azad edilmiş torpaqlarda hər tərəfin infrastrukturun dağıdıldığını, binaların söküldüyünü, hər yeri viran qoyduqlarını deyib və bildirib ki, həmin bölgələrdə, rayonlarda normal həyat üçün bütün addımlar atılacaq: "Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq. Bildiyiniz kimi, ilk layihələr artıq icra edilməyə başlanmışdır. Prezidentin ehtiyat fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolunun, Bərdə-Ağdam dəmir yolunun tikintisi artıq başlanmışdır. Bu, onu göstərir ki, biz bu işləri maksimum səmərə ilə və eyni zamanda, qısa müddət çərçivəsində planlaşdırırıq ki, vaxt itirmədən bütün işləri təşkil edək. Artıq müvafiq dövlət qurumu da yaradıldı və bu işlərin hamısı koordinasiya şəklində aparılacaqdır". Dövlət başçısı Laçın rayonunda böyük meşə sahələrindən də danışaraq bildirib ki, rayonlarımızda olan bütün sərvətlərimiz diqqət mərkəzində olacaq: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır. Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın - bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan ərazisindən keçən bizim əsas çayların mənbələri başqa ölkələrdə yerləşir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim bu 3 əsas çayımızın mənbələri başqa ölkələrdə yerləşir. Əlbəttə ki, 4 böyük çayın mənbəyinin ölkəmizin ərazisində olması böyük üstünlüyümüzdür. Ancaq bu ərazilər işğal altında idi. İndi bu ərazilər işğaldan azad edilib. İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir.

Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq".

### "Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib"

Dövlət başçısı Laçın rayonunun strateji əhəmiyyətindən danışaraq bildirib ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir: "Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir".

### "Belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır"

Prezident İlham Əliyev bildirib ki, 30 ilə yaxın danışıqlar prosesində Laçın rayonun qaytarılması həmişə önəmli olub: "Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox. Misal üçün, əgər Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarına baxsaq, orada daha çox hərbi hissələr yerləşirdi. Çünki orada bütün evlər, binalar mənfur düşmən tərəfindən dağıdılmışdı. Orada hərbçilər, onların ailə üzvləri yaşayırdı və çox az sayda mülki əhali yaşayırdı. Xaricdən gətirilən ermənilər oraya göndərilmirdi. Laçın rayonu isə artıq Ermənistan tərəfindən çox ciddi dərəcədə nəzarətə alınmışdı və orada çox böyük məskunlaşma proqramı icra edilmişdi. Orada minlərlə insan yaşayırdı və bəzi məlumatlara görə, bəlkə də 10 minə yaxın insan yaşayırdı. Yəni, Ermənistan rəhbərliyində Laçın rayonunu Azərbaycana qaytarmaq fikri olmamışdır. Biz Laçın dəhlizi haqqında danışıqlar zamanı mövzulara toxunarkən həmişə həm Ermənistan, həm də onun havadarları qeyd edirdilər ki, yox, Laçın rayonu ayrı mövzudur. Birbaşa bizə deyilməsə də, belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır!".

Dövlət başçısı bildirib ki, danışıqlar prosesi zamanı işğalda olan rayonların Azərbaycana qaytarılması məsələsi danışıqların mərkəzində yerləşirdi: "Bu, bizim mövqeyimiz idi. Ancaq burada da mərhələli həll nəzərdə tutulurdu. Biz də bunun tərəfdarı idik.

*Ardı Səh. 3*

# Haqqa, ədalətə gedən yol - QƏLƏBƏLƏR YOLUDUR!

## *Prezident İlham Əliyev: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir"*




**Əvvəli-Səh-2**

Birinci mərhələdə 5 rayonun Azərbaycana qaytarılması, ikinci mərhələdə isə Laçın dəhlizi istisna olmaq şərti ilə Kəlbəcər və Laçın rayonunun Azərbaycana qaytarılması. Ermənistan tərəfi hər dəfə məsələ qaldırırdı ki, əgər bu 7 rayon Azərbaycana qaytarılacaqsa, mütləq Dağlıq Qarabağın statusu eyni vaxtda öz həllini tapmalıdır. O başqa məsələdir ki, Ermənistan, sadəcə olaraq, danışıqlarda iştirak edərək imitasiya ilə məşğul idi və heç bir rayonu bizə qaytarmaq fikrində deyildi. Ancaq istənilən halda onların mövqeyi belə idi ki, 5 rayon qaytarıla bilər, amma Laçın və Kəlbəcər rayonlarının Azərbaycana qaytarılması üçün Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini ya tanımalıdır, ya da ki, orada keçiriləcək səsverməni tanımalıdır, səsvermə üçün tarix müəyyən edilməlidir. Dağlıq Qarabağa müstəqillik verilərsə, o zaman Ermənistan Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytaracaq, ancaq Laçın dəhlizi Ermənistana veriləcəkdi, özü də dəhlizin eni müəyyən edilməmişdi. Bax, bu idi danışıqlar masasında olan məsələlər".

### "Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir"

"Mən deyə bilərəm, bu 17 il ərzində dəfələrlə bizə müxtəlif yerlərdən, xarici dairələrdən belə siqnallar gəlirdi ki, indi beş rayonu alın, bununla da kifayətlənin. Siz müharibədə məğlubiyyətə uğramısınız, Ermənistan müharibədə, - Birinci Qarabağ müharibəsi nəzərdə tutulurdu, - qələbə qazanıb. Siz reallıqlarla razılaşın. İndi beş rayon ki, sizə vəd verilir, o da böyük şeydir, siz onu alırsınız, Laçın, Kəlbəcər də qalsın sonraya, siz nə vaxt müstəqillik versəniz Dağlıq Qarabağa, o vaxt da o rayonların bir hissəsi sizə qayıda bilər",-deyən dövlət başçısı bildirib ki, mən həmişə Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz: "Mənim mövqeyim xarici ölkələrdə bir çoxlarını qıcıqlandırırdı. Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq".

### "Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq"

"Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır",-deyən Prezident İlham Əliyev onu da bildirib ki, noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək: "Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və Bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Razılaşma icra edilir və icra edilməlidir. Bir daha demək istəyirəm ki, biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı. Bu Bəyanatın altında Paşinyanın imzası var. Bunu o imzalayıb, məcbur olub. O, əslində, kapitulyasiya aktına öz imzasını qoyub. Ermənistan ya tamamilə məhv olacaqdı, ya da ki, imzalayacaqdı. Başqasının buna nə dəxli var? Hər kəs getsin öz işi ilə məşğul olsun. Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik".

### "Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də"

Dövlət başçısı 27 il ərzində bu qətnamələr sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də: "Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Bu format nədən ibarət olacaq, bunu həyat göstərər. Hər halda biz bu yeni əməkdaşlıq formatının yaradılması üçün lazımi işləri gördük, öz torpaqlarımızdan düşməni qovduq və noyabrın 10-da imzalanmış Bəyanatda göstərilən məsələlər əgər bu gün öz həllini taparsa, onda bölgəmizdə yeni əməkdaşlıq çərçivələri yaradılacaqdır".

### "Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir"

"Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min, 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik",-deyən dövlət başçısı onu da deyib ki, 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: "Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə. Mən deyəndə ki, məsələnin hərbi yolu var, bunu nəzərdə tuturdum. Əgər düşmənin başını əzməsəydik, o, heç vaxt öz xoşu ilə bu torpaqlardan çıxmazdı. Düşmən bu işğalı əbədiləşdirmək istəyirdi və onların bütün çirkin əməlləri bu məqsədi güdürdü. Laçın rayonuna da bir eybəcər erməni adı vermişdilər. Artıq yoxdur bu ad, zibil yeşiyinə atıldı bütün başqa eybəcər adlarla bərabər".

### "Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi"

"Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi. Mən bir daha demək istəyirəm ki, hər bir rayonun işğal altına düşməsi faciə idi. Amma Laçın rayonunun işğalı imkan verdi ki, artıq Ermənistan ilə Dağlıq Qarabağ arasında yol bağlantısı olsun",-deyən Prezident İlham Əliyev bildirib ki, 1992-ci ilin may ayında Şuşanın işğalından bir neçə gün sonra Laçının işğal altına düşməsi böyük itkimiz idi: "Artıq Ermənistan bu dəhliz vasitəsilə silah-sursat, canlı qüvvə göndərirdi.

*Ardı Səh. 4*

# Haqqa, ədalətə gedən yol - QƏLƏBƏLƏR YOLUDUR!

## Prezident İlham Əliyev: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir"

Əvvəli-Səh-3

Əlbəttə ki, bu, böyük itkilərə gətirib çıxardı. Ondan təxminən bir il sonra Kəlbəcər rayonu işğal altına düşdü. Demək olar ki, bütün bunlar sonrakı işğal üçün zəmin yaratdı. Onu da bir daha demək istəyirəm ki, Laçın rayonu işğala məruz qalanda Bakıda hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizəni aparanlar Laçını, Şuşanı, Kəlbəcəri düşmənə satdılar, demək olar ki, Azərbaycan dövlətçiliyini uçurum kənarına qoydular. Biz bütün bu tarixi yaxşı xatırlayırıq".

Prezident İlham Əliyev bildirib ki, onsuz da biz Laçını da, Kəlbəcəri də, Ağdamı da alacaqdıq: "Bizim planlarımız var idi və biz ardıcıl şəkildə bu planlara doğru gedirdik. Ancaq hər kəs bilməlidir ki, Kəlbəcər və Laçın rayonlarının çox çətin relyefi var. Kəlbəcər rayonuna əvvəlki, sovet dövründə gedən yol Ağdərə rayonundan keçirdi. Sovet vaxtında bu rayona Mardakert deyilirdi, orada ermənilər yaşayırdı. Başqa yol demək olar ki, yox idi. Biz indi Kəlbəcərə Göygöl və Daşkəsən rayonlarından daxil olmuşuq. Xüsusilə qış mövsümünü, çətin relyefi nəzərə alsaq böyük itkilərimiz ola bilərdi. Həm Ağdam, həm Laçın, həm Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və böyük vaxt sərf olunacaqdı. Ona görə bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır. Mən bir daha demək istəyirəm, onlar görəcəklər ki, vahid Azərbaycan dövləti çərçivəsində onların yaşayışı yaxşı olacaq.

Onlar bu səfalətdən canlarını qurtaracaqlar. Baxın, biz indi Bərdədən Ağdama dəmir yolu çəkirik. Ağdamdan Xankəndiyə məsafə 20-30 kilometrdir. Amma Ermənistan paytaxtından Xankəndiyə gəlmək üçün neçə saat vaxt sərf etmək lazımdır - yük maşınları ilə bəlkə də on saat. Özü də çətin dağ yolları ilə. Ağdamdan isə Xankəndiyə yarım saat. Bu, gələcək perspektivlərimizi diktə edəcək. Ona görə biz buna hazır olmalıyıq və öz strategiyamızı, öz taktiki addımlarımızı elə atmalıyıq ki, bundan sonra bu bölgədə bir dənə də təhlükə mənbəyi olmasın. Əlbəttə ki, bunun qarantı Azərbaycan Ordusudur".

### "Ermənistan rəhbərliyi savadsız, siyasətdən başı çıxmayan insanlardan ibarətdir"

Prezident İlham Əliyev qeyd edib ki, biz məqsədə çatmaq üçün ardıcıl surətdə gedirik, Ermənistan rəhbərliyinin hətta Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir baxışı yox idi: "Onlar özləri bilmirdilər nə istəyirlər. Gah deyirdilər ki, Dağlıq Qarabağ "müstəqil dövlət"dir. Gah deyirdilər ki, "Dağlıq Qarabağ Ermənistan"dır. Bu təzadlı fikirlər bir-biri ilə necə uzlaşa bilər? Bu, nəyi göstərir? Onu göstərir ki, Ermənistan rəhbərliyi savadsız, siyasətdən başı çıxmayan insanlardan ibarətdir. Yaxşı, bu, müstəqil dövlətdirsə, onda sənin ordun orada nə iş görür? Əgər bu, müstəqil dövlətdirsə, - hansı ki, heç kim tanımayıb, elə birinci Ermənistan tanımayıb, - o necə ola bilər ki, Dağlıq Qarabağ Ermənistanın baş nazirinin sözləri ilə desək, "Ermənistandır və nöqtə". Ona görə onların bu məsələ ilə bağlı da açıq-aydın fikri yox idi. Bu idi bizim qarşımızda duran ölkə".

Dövlət başçısı deyib ki, artıq işğaldan azad edilmiş torpaqlarda olarkən bir daha gördüm ki, onlar bizə bir santimetr də torpaq qaytarmaq istəmirdilər: ". Əks-tədbirdə o istehkamları qurmazdılar. Onlar əbədi saxlamaq istəyirdilər o torpaqları. Ona görə o saxta xəritələri düzəldirdilər. Ona görə bizim şəhərlərimizə öz adlarını verirdilər. Ona görə xaricdən erməniləri gətirib oraya yerləşdirirdilər. Hərbi cinayət törədirdilər və cavab verəcəklər bütün cinayətlərə görə. Artıq işlər praktiki fazaya keçibdir. Qiymətləndirmə prosesi tezliklə başlanacaq, vurulmuş ziyan hesablanacaq. Artıq hüquqi müstəvidə addımlar atılır. Mən bunu artıq bildirə bilərəm Azərbaycan xalqına. Hələ ki, detalları açmaq istəmirəm. Amma bu, artıq niyyət deyil, bu, artıq praktiki addımlardır. Biz onları bundan sonra da ifşa edəcəyik".

### "Ermənistanın xarici dövlət borcu 8 milyard dollardır"

Prezident İlham Əliyev onu da qeyd edib ki, Ermənistanın xarici dövlət borcu 8 milyard dollardır, valyuta ehtiyatları təqribən 1 milyardın üstündədir: "Bu ölkə borc içindədir. Xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizini təşkil edir. Bu ölkədə indi bütün iqtisadiyyat məhv olub gedir. Müharibədən sonra milli valyuta kəllə-mayallaq getdi. Haradandır bu? Bu, bankrotdur. Bu, iflasa uğramış ölkədir. Bu qədər pulu haradan ödəyib? Bir də ki, göstərsin görüm, bu pulköçürmələrini necə həyata keçirib. Biz beynəlxalq qurumlara da müraciət edəcəyik, desinlər bizə, hansı kontraktlar əsasında bu pullar ödənilib. Ödənilibmi? Ödənilməyibsə, deməli, pulsuz alıb". "Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik. Yoxdur Ermənistan ordusu, yoxdur. İndi onlar canlı qüvvəsinin də məhv edilməsi ilə bağlı saxta rəqəmlər verirlər",-deyən dövlət başçısı vurğulayıb ki, işğalçı dövlət nə qədər canlı qüvvə itirib, məhv etmişik Ermənistan ordusunu: "Məhz buna görə məcbur olub, diz çöküb bizim qabağımızda və kapitulyasiya aktına imza atıb. Hər kəs üçün bu, dərs olmalıdır". Dövlət başçısı noyabrın 10-da imzalanmış Bəyanatın icra edilməsi ilə də bağlı bildirib ki, bu bəyanatı Rusiya Prezidenti Vladimir Putinlə ikimiz videokonfrans vasitəsilə Bakı vaxtı ilə noyabrın 10-da imzalamışam: "Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir. Mən imzalanma mərasimindən sonra bu bəyanatı olduğu kimi Azərbaycan xalqının diqqətinə çatdırdım və bir daha göstərdim ki, bizim bütün işlərimiz şəffafdır. Mən xalqın gözü qarşısında bunu imzalamışam, böyük qürur hissi ilə imzalamışam, qalib kimi imzalamışam. Bu Bəyanatın bütün mətnini Azərbaycan xalqının diqqətinə çatdırdım".

### "Ermənistan, sən dalansan"

Dövlət başçısı bildirib ki, Ermənistan 20 ildir ki, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyir. Ortalıqda da bir şey yoxdur: "Nə Şimal-Cənub dəhlizi ola bilər? Oradan, o dağlardan, o Mehri dağlarından dəmir yolu çəkmək olar? Adam gərək dəli olsun ki, oraya bir neçə milyard pul qoysun. Özü də yaxşı, tutaq ki, kimsə bu pulu verdi, sonra haraya gedəcək? Ermənistan, sən dalansan. Biz səni dalan etdik. Kim səni təcrid etdi? Biz. Enerji, nəqliyyat, elektroenergetika - biz onu təcrid etmişdik. Bu günlərdə bu çirkin qətnamələri qəbul edənlər və onların arxasında duranlar kömək etdimi onlara? Yox. Bizim iradəmizə təsir etdimi? Yox. Nəyə görə? Çünki güclü iradəmiz var, xalq-iqtidar birliyi var. Çünki Azərbaycan 1993-cü ildən bu günə qədər etibarlı əllərdədir. Azərbaycana rəhbərlik edən Ulu Öndər və ondan sonra mən Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutmuşuq. Ermənistan rəhbərləri kim olub? 20 il quldurlar - Koçaryan-Sarkisyan xunta rejimi, iki il yarım da kim olub, erməni xalqı özü bilir. Qatar getdi. Amma hələ də gec deyil. Hələ o qatara minəbilərsiniz, əgər bizim icazəmiz olsa, əgər bizim şərtlərimiz təmin olunsa. Bundan sonra belə olacaq, ancaq belə olacaq!"

"Yeddi şərt qoyan Paşinyan, görəsən, indi hansı şərt qoya bilər və kimə şərt qoya bilər? Hanı o 7 şərt? Getdi işinə. Azərbaycan qondarma "Dağlıq Qarabağla" danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi",-deyən Prezident İlham Əliyev bildirib ki, "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" - bunu necə deyərlər, belə böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı. Nə oldu? Qarabağ Ermənistandır? Gəlsin desin bunu. Qarabağ Azərbaycandır! Ona o əl çalanlar, o kriminal rejimin nümayəndələri indi ya məhv olublar, ya fərarilik ediblər. Özləri etiraf edirlər ki, 10 mindən çox fərari var. Deyirdi ki, Şuşada - bizim tarixi, qədim şəhərimiz, bizim ürəyimiz, canımız olan Şuşada bunlar qondarma "Dağlıq Qarabağın" parlamentini inşa edəcəklər. Nə oldu o parlament? Vurduq dağıtdıq, məhv etdik. Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi axırı nə olacaq. Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

> *"Yeddi şərt qoyan Paşinyan, görəsən, indi hansı şərt qoya bilər və kimə şərt qoya bilər? Hanı o 7 şərt? Getdi işinə. Azərbaycan qondarma "Dağlıq Qarabağla" danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi",-deyən Prezident İlham Əliyev bildirib ki, "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" - bunu necə deyərlər, belə böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı.*

### "Bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi"

"Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm",-deyən dövlət başçısı bu qələbə müjdəsini xalqa çatdırdığı üçün xoşbəxt hesab edir: "Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir. Artıq müharibə arxada qaldı. Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

### "Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır"

"Bilirsiniz, bunu hər kəs bilməlidir və biz bütün dünyaya göstəririk ki, biz böyük xalqıq, yenilməz xalqıq",-deyən Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

**RƏFİQƏ KAMALQIZI**

# Türkiyə mediası: Azərbaycanın qazandığı qələbə bölgənin inkişafı üçün yeni perspektivlər açır










***Azərbaycan Prezidenti İlham Əliyevin Laçın rayonunun Ermənistanın işğalından azad olunması münasibətilə xalqa müraciəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb. Türkiyə mediası dövlətimizin başçısına istinadla "Ermənistan ordusu artıq yoxdur!" ifadəsini mühüm sərlövhə kimi istifadə edib.***

AZƏRTAC xəbər verir ki, təcavüzkar Ermənistanın işğalçılıq siyasəti və fasiləsiz təxribatları səbəbindən Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı əks-hücum əməliyyatlarını fasiləsiz olaraq diqqətdə saxlayan Türkiyə KİV-ləri Azərbaycan həqiqətlərinin dünya və ölkə ictimaiyyətinə çatdırmaqda davam edir. Prezident ilham Əliyevin dekabrın 1-də Azərbaycan xalqına müraciətində səsləndirdiyi fikirlər, çağırış və mesajlar media tərəfindən geniş işıqlandırılmaqla bərabər ekspertlər tərəfindən də geniş təhlil olunmaqdadır. Qeyd olunur ki, Azərbaycanın qazandığı qələbə bölgənin inkişafı üçün yeni perspektivləri açır və bu, regionda yeni geosiyasi və geoiqtisadi münasibətlər mühiti formalaşdırıb.

# Adil Əliyev: "Laçın rayonunun işğaldan azad edilməsi şanlı qələbəmizin təcəssümüdür"



"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən aparılan 44 günlük müharibə nəticəsində əzəli və əbədi torpaqlarımız düşmən işğalından azad edilməklə, uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyü bərpa edildi". SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

Adil Əliyev bildirib ki, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda rəşadətli Ordumuz misli görünməmiş şücaət göstərdi və düşmənə vurulan ağır zərbələrin nəticəsində Ermənistan məğlub olaraq döyüş meydanından qaçdı. Vətən müharibəsi zamanı düşmən tam şəkildə məğlub oldu, döyüş meydanında başlayan Qələbə yürüşü adekvat olaraq diplomatik masada da dövlətimizin başçısı tərəfindən çox böyük uğurla davam etdirilir.

Dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsinin şanlı qələbəmizin təcəssümü olduğunu vurğulayın Milli Məclis Sədrinin müavini deyib: "Prezident İlham Əliyevin xarici telekanallara verdiyi müsahibələr zamanı Ermənistanın təcavüzkar siyasətini bir daha dünyanın diqqətinə çatdırması, bütün dünyanın de-fakto olaraq Ermənistanı təcavüzkar ölkə kimi tanımasına gətirib çıxardı. Qeyd etmək lazımdır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfindən icra edilməsə də bu vaxta qədər işğalçıya qarşı heç bir tədbir görülməmişdir. Yalnız sentyabrın 27-də erməni təxribatından sonra əks-hücum əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu bu qətnamələrin icrasına nail oldu. Döyüş meydanında qazandığımız uğurlar düşməni Ağdamdan, Kəlbəcərdən və Laçından çıxmağa məcbur etdi. Beləliklə, bu qətnamələrin də icrası təmin olundu, Azərbaycanın ərazi bütövlüyü təmin edildi.

Laçının mühüm strateji əhəmiyyət kəsb etməsi səbəbindən Ermənistan və onun havadarları bu rayonun təhvil verilməsini heç vaxt istəməmişdilər. Lakin Ali Baş Komandanın həm müharibə meydanında, həm də diplomatik müstəvidə göstərdiyi qətiyyət və qazanılmış uğurlar həmin ərazilərin Ermənistan tərəfindən qeyd-şərtsiz işğaldan azad edilməsini təmin etdi. Dövlətimizin başçısının xalqa müraciətində qeyd etdiyi kimi, "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Adil Əliyev qeyd edib ki, Laçın rayonunun təhvil verilməsi ilə birgə Bəyanatın daha bir müddəası icra edildi. 28 il ərzində üzərinə götürdüyü öhdəliklərə, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərə məhəl qoymayan Ermənistan Azərbaycan Respublikası Prezidentinin qətiyyətli iradəsi, şanlı Ordumuzun göstərdiyi şücaət sayəsində məğlub edildi və torpaqlarımızdan çıxmağa məcbur oldu. Yaşasın bizə bu qələbəni bəxş edən Müzəffər Ali Baş Komandan, eşq olsun Azərbaycan Ordusuna.

# Rasim Quliyev: "Putin ermənilərin yalvardığını görməkdən məmnundur"



"Bu gün erməni əsgər anaları ağlaya-ağlaya Rusiya prezidenti Vladimir Putinə müraciət ediblər. Həmin müraciət həm rus, həm də erməni dilində dərc olunub. Hər iki dildə dərc olunan müraciətdə birmənalı olaraq qeyd olunur: "Cənab Putin sənə yalvarırıq ki, bizim övladlarımızın ölüsünü və yaxud da dirisini qaytarasınız. Hər an, hər dəqiqə bizim övladlarımız üçün qiymətlidir". Bunu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

Siyasi ekspertin sözlərinə görə, bir-iki il bundan öncə "Soros"un təbliğatı ilə rusları söyən erməni ictimaiyyəti və cəmiyyəti bu gün artıq yalvarırlar: "Bu məsələlərin bizə heç bir aidiyyatı yoxdur əksinə rusların özünə lazımdır. Əgər Rusiya Ermənistanda möhkəmlənərsə, biz stabil əlaqələrin qurulmasında bundan daha yaxşı istifadə edə bilərik. Yeri gəlmişkən cənab Prezident İlham Əliyev Naxçıvan şəhərinə açılacaq dəmiryolu xətti ilə bağlı qeyd etdi ki, biz həmin layihəni ruslarla həyata keçiririk. Niyə? Ona görə ki, Ermənistan həmin dəmiryolu səhmlərinin böyük hissəsini ruslara satıb. Yəni Ermənistanda strateji obyektlərin, strateji dövlət əhəmiyyətli səhmlərin bir çoxu ruslara məxsusdur. Rusiyanın Ermənistanı hansı formada özündən asılı vəziyyətə salması isə onların öz problemidir".

# Ukrayna mətbuatı Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərlərə geniş yer ayırıb

Ukrayna mətbuatı Azərbaycanın Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərlərə geniş yer ayırıb. SİA xəbər verir ki, "RBK-Ukrayna", "Gordon", "Dialog.ua", "Podrobnosti.ua" və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələri kalonunun Laçın rayonuna daxil olması barədə məlumat verilib.




Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinadla qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil olub. Ukrayna mətbuatında Azərbaycan hərbçilərinin Laçında Dövlət Bayrağımızı sancması videosu da yayılıb.

# Azərbaycanın misilsiz qələbəsi əbədiləşdirildi

## *Dövlət başçısının Sərəncamı ilə hər il noyabrın 10-u Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək*

Xalq öz tarixi ilə tanınır, öz tarixi ilə böyüklüyünü təqdim edir. Azərbaycan xalqı o xalqlaordandır ki, zaman-zaman işğalçıların torpaqlarına hücumu ilə üz-üz dayanıb, mücadilə aparıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".



Bu müracət xalqın tarixində yeni bir günün başlanmasıdır. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğurunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Azərbaycanın qələbə sorağıdır bu. Azərbaycan ordusu bu gün Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi. Zəfər günümüzü yaşatdı. Artıq bu gün tarixiləşdi. Artıq hər il xalqımız bu günü qeyd edəcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam imzaladı. Sərəncama əsasən, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-u Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Deyən Prezident İlham Əliyev onu da bildirib ki, "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!". Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. O ordu ki, döyüş meydanında öz gücünü göstərə bildi. "Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək" deyən dövlət başçısı bunun asan məsələ olmadığını qeyd edib. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Artıq Azərbaycanın işğalda olan torpaqları azaddır və Qarabağ Azərbaycandır!!!

### DÖVLƏTİMİZİN ŞƏHİDLƏRİMİZƏ DƏRİN EHTİRAM ƏLAMƏTİ: SENTYABRIN 27-Sİ AZƏRBAYCAN RESPUBLİKASINDA ANIM GÜNÜ KİMİ QEYD EDİLƏCƏK

Təbii ki, bu uğulu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrəniləcəkdir. Dövlət başçısının digər Sərəncamı ilə Azərbaycan Respublikasında Anım Günü təsis edilib. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Sərəncama əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd ediləcək.

Bu müharibə dövründə düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətdilər. Həmvətənlərimizin bir çoxu şəhid oldu, itkin düşdü, sağlamlığını itirdi. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Xalq-iqtidar birliyi zəfər, qələbə tarixini yazdı.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Sevinc Fətəliyeva: "Prezidentin rəhbərliyi ilə dövlətimiz regionda yeni əməkdaşlıq platforması yaradır"

"Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Laçın rayonunun qaytarılmasının timsalında Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin 10 noyabr tarixli bəyanatının, Azərbaycanın heç bir itki verməden mürəkkəb relyefə, yaradılmış müdafiə sistemlərinə malik rayonları işğaldan azad etməsi mühüm əhəmiyyətə malikdir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.



Sevinc Fətəliyeva bildirib ki, Laçın rayonu böyük strateji əhəmiyyət kəsb edir. belə ki, bu rayon Ermənistanı Dağlıq Qarabağla birləşdirən dəhliz rolunu oynayır. Laçın işğal edildikdən sonra Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yarandı və torpaqlarımızın işğalı asanlaşdı. Artıq Laçının işğaldan azad edilməsi ərazi bütövlüyümüzün bərpa olunması deməkdir. Rayonun strateji əhəmiyyətini nəzərə alsaq, onun işğaldan azad edilməsi həqiqətən də tarixi hadisədir.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev hər zaman prinsipiallıq, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edib. 10 noyabr razılaşmasının müxtəlif variantları üzərində müzakirələrdə, ümumiyyətlə, danışıqlar prosesinin müxtəlif mərhələlərində Prezident İlham Əliyevin göstərdiyi prinsipiallıq və qətiyyət, milli maraqlarımızı cəsarətlə müdafiə etməsi, böyük diplomatik məharəti, dəqiq, məqsədyönlü, ardıcıl siyasət aparması qazanılmış tarixi qələbənin məntiqi nəticəsidir. Azərbaycanın gücü, potensialı və strateji yanaşması bölgədə yeni reallıq yaradacaq. Güclü və böyük iqtisadi potensiala malik Azərbaycanın işğaldan azad edilmiş ərazilərin sürətli inkişafına nail olacaq, bu bölgələrin ən qabaqcıl standartlara uyğun yenidən bərpa ediləcəyi, oarada yaşayan əhalinin rifahı üçün bütün addımlar atılacaq və bütün bunlar həmin regionda yaşayan bütün insanlar, o cümlədən Dağlıq Qarabağda yaşayan ermənilər üçün yeni perspektivlər açacaq.

S.Fətəliyeva deyib ki, müharibədə məğlub olan Ermənistan beynəlxalq münasibətlər sistemində sebyekt deyil, obyektdir. Onun bu vəziyyətə düşməsi Azərbaycana qarşı işğalçılıq siyasətinin nəticəsidir. Əgər bu ölkə zamanında Azərbaycanın çağırışlarına əməl edib işğalçılıq siyasətinə son qoysaydı, regionda həyata keçirilən qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrinin iştirakçısı ola bilərdi. Prezident İlham Əliyev dekabrın 1-də Azərbaycan xalqına müraciəti zamanı bu məsələlərlə bağlı fikirlərini ətraflı şəkildə bildirdi.

"Bilirsiniz ki, noyabrın 10-da imzalanmış Bəyanat ardıcıl şəkildə icra edilir. Razılaşmalara əsasən atəşkəs təmin edilib, üç rayon Azərbaycana qaytarılıb, Rusiya sülhməramlıları bölgədə yerləşdirilib, atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz (Türkiyə-Rusiya mərkəzi) yaradılıb. Növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi təmin olunacaq. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi davam edir. Eyni zamanda, BMT-nin nəzarəti altında məcburi köçkünlər, o cümlədən də azərbaycanlılar Dağlıq Qarabağın bütün yerlərinə qayıdacaqlar. Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bir məqamı qeyd etmək istəyirəm ki, Naxçıvana quru dəhlizin açılması mühüm tarixi nailiyyətdir. Məhz Azərbaycan Prezidentinin təkidi ilə əvvəllər nəzərdə tutulmayan Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bununla da Naxçıvan həm blokadadan çıxarılır, eyni zamanda, yeni nəqliyyat damarı yaradılır. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşir. Belə bir nəqliyyat dəhlizinin yaradılması regionda mühüm hadisədir və region ölkələrinin əməkdaşlığını daha da gücləndirəcək",-deyə S.Fətəliyeva vurğulayıb.

# İqumen Aleksi: Mehriban Əliyevanın mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi üzrə fəaliyyətinin parlaq nəticələrini mən gözlərimlə görmüşəm


молодежь идет на обострение отношений с монархией
Меркель
Байдену предлагают вывести из строя российские банки
Ремчуков: Помнить всегда, что первая часть нашей Конституции написана кровью и жертвами народа

Газета Культура Интернет-версия

01.12.2020 10:00:00

Игумен Алексий (Никоноров): Блестящие результаты деятельности Мехрибан Алиевой по укреплению взаимопонимания между культурами я видел своими глазами!

Первый вице-президент Азербайджана Мехрибан Алиева инициировала проекты по восстановлению православного наследия страны

Теги: Игумен Алексий, религия, общество, христианство, кавказ, карабах, армения, азербайджан, алиев, алиева

Обострение конфликта вокруг Нагорного Карабаха - все статьи по теме

После окончания войны в Карабахе одной из самых

В пакете «Технологии выгоды»
Домашний интернет
Мобильная связь
Интерактивное ТВ
Онлайн-кинотеатр
Подключить

ДРУГИЕ НОВОСТИ

***İtaliyanın Merano şəhərindəki Müqəddəs Nikolay pravoslav kilsəsinin baş keşişi, İqumen Aleksinin (Nikonorov) "Nezavisimaya qazeta"da müsahibəsi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, müsahibədə Aleksi ata qeyd edib ki, Qafqazda xristianlıq faktiki olaraq, bu dinin yarandığı vaxtdan mövcud olub. Bununla yanaşı, burada xristian ənənələrinin inkişaf və tənəzzül dövrləri olub, lakin onlar heç vaxt yox olmayıb. Həm Qarabağ ərazisində, həm də Azərbaycanın bir çox başqa rayonlarında mövcud olan çoxsaylı məbədlər və monastırlar buna parlaq sübutdur.

"İndiki azərbaycanlılar bu torpaqda mövcud olan həmin dövlətləri, o cümlədən Qafqaz Albaniyası dövlətinin qanuni xələfləridir, həmçinin bu günümüzə gəlib çatan mədəni və dini abidələrin varisləridir", - deyə İqumen Aleksi vurğulayıb.

Qarabağ ərazisindəki müqəddəs yerlərdən danışan Aleksi ata deyib: "Biz başa düşməliyik ki, eramızın 428-ci ilində erməni dövləti süqut etdi və İranın Sasanilər sülaləsinin canişininə çevrildi. Növbəti yüzilliklərdə müstəqil erməni dövlətinin epizodik bərpasının Qarabağ ərazisinə ümumiyyətlə aidiyyəti olmayıb. Ona görə də həmin dövrdə regionda yaranan abidələrin heç biri erməni abidəsi adlandırıla bilməz. Qarabağda qorunub saxlanılan ən mühüm və qədim komplekslər bunlardır: Amaras monastırı (IV əsr), Dadivank monastırı (IX-XIII əsrlər) və Qandzasar monastırı (XIII əsr). Amaras (Xocavənd rayonunda) - birinci Alban arxiyepiskopu Qriqorisin basdırıldığı yerdir, alban çarı Vaçe tərəfindən V yüzillikdə bərpa edilib və tikilib, erkən Orta əsrlər dövründə alban katolikoslarının iqamətgahı olub. Dadivank (Kəlbəcər rayonunda) rəvayətə görə apostol Faddeyin şagirdi - Dadinin məzarı üzərində qurulub, hazırkı görünüşdə XII əsrin əvvəllərində Aran-şahlar nəslindən Xaçen hökmdarları tərəfindən tikilib. Qandzasar (Kəlbəcər rayonunda) - alban knyazlarının ata-baba sərdabasıdır, Həsən Calal tərəfindən tikilib, XIV əsrdən alban katolikoslarının iqamətgahı olub. Əsasən XIII əsrə aid olan və müxtəlif dərəcədə qorunub saxlanmış 15-ə yaxın məbəd mövcuddur. Qafqaz Albaniyasının ərəblər tərəfindən işğalından sonra regionun xristian əhalisi ərəb qoşunlarının keçə bilmədiyi dağlıq yerlərə və ölkənin inzibati rayonlarına (Qarabağda) toplanır. Faktiki olaraq bu dövrdə Qarabağda alban dini memarlığı yaradılır. Bununla belə, nüfuzlu erməni tarixçisi Suren Yeremyan XIII əsrin tarixçisi Kirakos Qandzaketsinin "alban rəislərinin yalnız hansısa hissəsi erməni dilini bilirdi, eyni zamanda, Qarabağ əhalisi öz doğma dilində danışırdı" sözlərini sitat gətirir.

Ehtimal etmək olar ki, həmin vaxtdan da bərpa işlərində erməni yazılarından istifadə edilməyə başlanıb. Bəli, burada monofizitlər dua edə bilərdilər, onları, o cümlədən erməni əsilli ustalar da bərpa edə bilərdilər. Onların adını erməni tarixçiləri öz əsərlərində yada sala bilərdilər, lakin bütün bunlar Qafqaz Albaniyasının dini və mədəni abidələrini ermənilərinki edə bilməz!"

İqumen Aleksi öz müsahibəsində rusiyalı mədəniyyət xadimlərinin UNESCO-ya müraciəti mövzusuna toxunub. Müraciətdə Qarabağ irsinin eynilə Suriyanın Palmira şəhərinin taleyini gözləyəcəyi qorxusu ifadə olunur. O deyib: "Hər bir xalqın mədəni irsi, hər şeydən əvvəl, dövrlərin varisliyini təmin edən, insanları öyrədən və tərbiyə edən, xalqın ən gözəl cəhətlərini üzə çıxaran qiymətli sərvətdir. Buna görə də tarixi abidələrin qorunmasına xüsusi diqqət ayırmaq mühümdür. Düşünmək olar ki, sivilizasiyalı dünyada bunu hamı anlayır. Azərbaycan isə özünün ən yeni tarixində mədəniyyət və tarixi abidələrinə qayğı ilə yanaşmanın etalon nümunəsini göstərir, həm də bu münasibət təkcə Azərbaycanın öz abidələrinə aid deyil.

Son 27 ildə müstəqil Azərbaycan dövləti mürəkkəb siyasi, iqtisadi, digər problemlərin həllinin vacibliyinə baxmadan tarixi abidələrin qorunmasına və beynəlxalq səviyyəli sahəvi mütəxəssisləri cəlb etməklə bu abidələrin mükəmməl, dəqiq bərpasına xüsusi diqqət ayırıb. Buraya təkcə qədim böyük şəhərlər, qalalar, gözətçi qüllələri, xan sarayları, məscidlər deyil, həm də xristian məbədləri, sinaqoqlar aiddir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva UNESCO-nun beynəlxalq səviyyədə tanınmış xoşməramlı səfiridir. Heydər Əliyev Fondunun vəsaitləri hesabına Romada Müqəddəs Marsellina və Pyotr qədim xristian katakombaları bərpa edilib, Müqəddəs Sebastyan bazilikası kompleksinin qədim xristian sarkofaqlarının bərpası üzrə işlər davam edir. Bu işlərin parlaq nəticələrini mən gözlərimlə görmüşəm!

İtaliyalı jurnalistlər Azərbaycanın birinci xanımından "Müsəlman dövlətindən - Azərbaycandan olan Fond nə üçün xristian irsinin bərpa işlərini maliyyələşdirir?", - deyə soruşanda xanım Əliyeva belə cavab verib: "Azərbaycan Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşuğunda yerləşir və bu coğrafi mövqe ölkəmizi xarakterizə edən dərin müxtəlifliyə öz təsirini göstərib. Azərbaycan ərazisində yaşayan xalqlar həmişə bir-birinə dost və qardaş olublar, çoxsaylı dini konfessiyaların mövcud olması bizim böyük sərvətimizdir".

Əgər Qarabağın mədəni irsinə qayğı göstərmək barədə Azərbaycanın niyyətlərinə və bacarığına şübhə edən varsa, qoy onlar Azərbaycana gəlsinlər, bu ölkənin şəhər və kəndlərini ziyarət etsinlər. O zaman şübhələr öz-özünə çəkiləcək".

# Ceyhun Bayramov Sergey Lavrov arasında telefon danışığı olub




Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

# Mövlud Çavuşoğlu: "Azərbaycanın istəyi ilə Türkiyə bölgədə atəşkəsə nəzarəti də həyata keçirəcək"




Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qərarlarına əsaslanan danışıqlar yolu ilə həllini hər zaman dəstəkləyib. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanatı məmnunluqla qarşıladıq. Azərbaycanın istəyi ilə Türkiyə bölgədə atəşkəsə nəzarəti də həyata keçirəcək. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "IV TRT World Forum 2020"də çıxışı zamanı səsləndirib.

Ermənistanın hərbi təcavüzü nəticəsində münaqişənin yenidən şiddətləndiyini xatırladan M.Çavuşoğlu deyib: "1990-cı illərin əvvəllərindən bəri Azərbaycanın torpaqlarının 20 faizinin qeyri-qanuni işğalına "dondurulmuş münaqişə" kimi yanaşılıb. Son hadisələr bu məsələnin dondurulmuş münaqişə olmadığını göstərdi. Münaqişə elə münaqişədir və hər an gərginləşə bilər. Dondurulmuş olan münaqişə deyil, onun həllidir".

# Qənirə Paşayeva: 30 ilə yaxın müddətdə "qalib" ədası ilə lovğalanan Ermənistanın çöküşü qaçılmazdır



Laçın rayonu işğaldan azad olundu. Düşmənin Laçından çıxması üçün hərbi və siyasi əsasları yaradan dövlətimizə və Ordumuza minnətdarıq. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə sonsuz təşəkkürlərimizi bildiririk.

İstənilən yaşayış məntəqəmizin, hər qarış torpağımızın düşmən tapdağından azad olunması bizim üçün çox dəyərlidir. Vətən torpağının hər qarışı qiymətlidir və biz onun uğrunda ölümü gözümüzə aldıq. Biz bu sözlərin həqiqət olduğunu 44 günlük müharibədə sübut etdik. Sirr deyil ki, Laçın rayonu Qarabağ müharibəsində müstəsna əhəmiyyətə malik idi. Prezident İlham Əliyev də vurğuladığı kimi, 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı məsələ diqqətçəkən olub. Bəzi Qərb dairələrinin qarşı tərəfi dəstəkləməsi onlara qol-qanad verirdi. Məhz bu səbəbdən Laçın rayonunda çox ciddi məskunlaşdırma siyasəti aparılırdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva bildirib.

Deputat qeyd edib ki, Laçında Azərbaycan Bayrağının qaldırılması, Azərbaycanın Dövlət Himninin oxunması erməni cəmiyyətinə çox böyük zərbədir. Öz işğalçılıq siyasətinin əbədi davam etdirəcəyinə arxayın olan Ermənistan hərbi-siyasi rəhbərliyi son günə, son saatadək "bəlkə də qaytardılar" xülyası ilə yaşayırdı. Ömürboyu intriqa mövqeyi nümayiş etdirən ermənilərin burnu əzildi. Biz onlara əzəmətimizi, gücümüzü göstərdik və sübut etdik ki, bizə xəyanət etməklə böyük səhvə yol veriblər. Düşünürəm ki, Ermənistanda daxili çəkişmələr bundan sonra daha da güclənəcək. Qarabağ ermənisi, yerli erməni kimi ifadələr daha çox işlənəcək. Bir sözlə, onlar daxildən bir-birini yeyib didəcəklər. Mənzərə isə belədir : uğursuz dövlət, əsassız iddialar, aldadılmış cəmiyyət və sonda acı məğlubiyyət. Budur, uzun illər bizə məğlubiyyətlə barışmağı "diktə edən" Ermənistanın reallığı. 30 ilə yaxın "qalib" ədası ilə lovğalanan, özünü üstün tərəf kimi təqdim etməyə cəhd göstərən Ermənistanın çöküşü qaçılmazdır. Düşünürəm ki, Laçının azad edilməsi Ermənistanın saxta təbliğat maşınının olan-qalan hissələrini də sıradan çıxardı. Ermənistanın işğalçılıq siyasəti başa çatdı.

Mədəniyyət komitəsinin sədrinin sözlərinə görə, 44 günlük müharibənin iştirakçısı olmuş erməni generallarının və əsgərlərinin etiraflarından müəyyən etmək mümkündür ki, düşmən silahlı qüvvələrinin 80 faizi sıradan çıxarılıb. Qarşı tərəf heyət, texnika və psixoloji baxımından ciddi ziyan çəkdi. Ermənistanın özünə gəlməsi üçün illər lazım olacaq.

"Azərbaycanın Silahlı Qüvvələrinin Laçına daxil olması bir dövrün başa çatması, yeni bir dönəmin başlanmasının təzahürüdür. Qondarma rejimə dövlət statusu qazandırmaq istəyən Ermənistan artıq öz başının çarəsinə baxmalıdır. Hərçənd özünü dolandırmaq üçün resurslardan məhrumdur. İşğal altındakı torpaqlardan illər uzunu daşıdığı taxıl, üzüm və digər qiymətli sərvətlər - mineral sular, qızıl və sair artıq Ermənistanın əlindən çıxıb. Bundan əlavə, işğalçı ölkə Azərbaycana vurduğu ziyana görə təzminat ödəməlidir. Xarici borcu dövlət büdcəsindən çox olan kasıb və məğlub bir ölkənin- Ermənistanın taleyi sual altındadır", - deyə Qənirə Paşayeva fikirlərini tamamlayıb.

*Azərbaycan Ordusunun 44 günlük müharibədə işğal altındakı torpaqların əhəmiyyətli bir hissəsini azad etməsi və bundan sonra Ermənistanın təslim olması, Rusiya və Türkiyənin regiona sülhməramlılarını göndərməsi bütün Cənubi Qafqazda geosiyasi vəziyyəti və qüvvələr nisbətini kəskin dəyişdi. Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə atəşkəs haqqında bəyanatdakı imzaların mürəkkəbi qurumamış ABŞ və Fransa əldə olunan razılaşma ilə bağlı suallarının olduğunu əks etdirən açıqlama yaydılar.*

# Cənubi Qafqaz uğrunda mübarizənin həlledici mərhələsi başlayıb




Vaşinqton və Paris hərbi əməliyyatların dayandırılmasını alqışlasalar da, prosesin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılmasını önə sürdülər. ABŞ və Fransanı narahat edən məqamlardan biri də atəşkəsdən sonrakı prosesdə Türkiyənin rolu ilə bağlıdır. Hətta Türkiyənin prosesdə yer almasının beynəlxalq qanunlara uyğun olmadığı da iddia edilməyə başlandı. ATƏT-in Minsk qrupunun həmsədrləri qismində ABŞ və Fransanın Moskvaya ünvanladıqları sual və iradlara Rusiya prezidenti Vladimir Putin cavab verərək Türkiyənin prosesdə yer almasının beynəlxalq qanunlara zidd olmadığını bildirdi. Türkiyənin ATƏT-in Minsk qrupunun 11 üzvündən biri olduğuna diqqət çəkən Rusiya prezidenti Azərbaycanın da müstəqil dövlət kimi istənilən dövlətlə hərbi sahədə əməkdaşlıq etmək və yardım istəmək hüququna malik olduğunu bəyan etdi. Moskvanın bu cavabından sonra Rusiya ilə birgə hərəkət edə bilməyəcəklərini anlayan ABŞ və Fransanın Cənubi Qafqazda təkbaşına hərəkət etmək qərarı aldıqlarını görmək olar. Bu zaman ABŞ əsasən bölgədə təmsilçiliyi Gürcüstan üzərindən həyata keçirmək istəyirsə, Fransa Rusiyanın daha da gücləndiyi Ermənistandakı mövqelərini qorumağa çalışır. ABŞ, Rusiya və Türkiyədən fərqli olaraq bölgədə hərbi təmsilçiliyə və ciddi iqtisadi təsirə malik olmayan Fransa siyasi mexanizm və alətlərdən istifadə edərək bölgədəki mövqelərini qorumağa çalışır. ATƏT-in Minsk qrupu, Avropa Birliyi və ən nəhayət, BMT Təhlükəsizlik Şurası Fransanın bölgədə təsir imkanlarını saxlaması üçün istifadə edə biləcəyi siyasi mexanizmlərdir. Ona görə də Paris hər vəchlə ATƏT-in Minsk qrupunun fəaliyyətinin önə çəkilməsinə çalışır.

Fransa bundan başqa, qondarma “Dağlıq Qarabağ Respublikası”nın müstəqilliyinin tanınması ilə bağlı beynəlxalq hüquqa zidd addıma əl atmaqla bölgədəki, xüsusilə Ermənistandakı mövcudluğunu qoruyub saxlamağa çalışır. Ancaq bununla Cənubi Qafqazın ən böyük ölkəsi olan Azərbaycanla münasibətlərinin də qırıla biləcəyinin hələ ki, fərqində deyil.

Rusiya və Fransadan fərqli olaraq, ABŞ Cənubi Qafqazda maraqlarını Gürcüstan üzərindən həyata keçirməyə çalışır. ABŞ Dövlət katibi Mayk Pompeo noyabrın 13-dən 23-ə kimi davam edəcək Avropa və Yaxın Şərqə 10 günlük səfərinin iki gününü Gürcüstanda keçirib. Gürcüstandan başqa, Pompeonun səfər planına Fransa, Türkiyə, İsrail, Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliyinin daxil olması Tbilisinin Vaşinqtonun xarici siyasətində nə qədər önəmli olduğunu göstərən başqa bir məqamdır.

ABŞ Dövlət katibinin Tbilisidə prezident, Baş nazir, xarici işlər naziri ilə yanaşı, bütün Gürcüstanın Patriarxı ilə də görüşməsi, bu görüşlərin əksəriyyətinin gizli aparılması Pompeonun Gürcüstan səfərinin önəmini göstərən üçüncü məqamdır. Ekspertlərin fikrincə, Pompeonun bağlı qapılar arxasında apardığı danışıqlarda ABŞ-ın Gürcüstanda hərbi baza yaratması müzakirə olunub. Bu iddia isə yalnız görüşlərin qapalı keçirilməsindən qaynaqlanmır. Pompeonun Tbilisiyə səfəri ərəfəsində bir qrup gürcü ictimai-siyasi xadimi ABŞ Dövlət katibinə açıq məktubla müraciət edərək Vaşinqtonu daimi əsaslarla Gürcüstanda hərbi baza yerləşdirməyə çağırmışdılar. Müraciəti imzalayanlar arasında sabiq müdafiə nazirləri İrakli Alasaniya və Tina Xidaşeli, sabiq xarici işlər naziri Tedo Caparidze, Avrointeqrasiya məsələləri üzrə keçmiş nazir Aleksi Petriaşvili, Gürcüstanın ABŞ-da və NATO-dakı sabiq səfirləri Temur Yakobaşvili və Qriqol Mqaloblişvili, nüfuzlu politoqlar Kaxa Qoqolaşvili, Gela Vasadze və Tornike Şaraşadenidze də var. Müraciət müəllifləri hesab edirlər ki, ABŞ Gürcüstanda hərbi baza yerləşdirməklə gürcü xalqının təhlükəsizliyinin təminatçısı olmaqla yanaşı, NATO-ya inteqrasiyanı da gücləndirə bilər. Gürcü xalqının ABŞ-ın bu addımını dəstəkləyəcəyi ilə bağlı müraciət müəlliflərinin fikirləri isə əsassız deyil. Edison Research şirkətinin keçirdiyi rəy sorğusunun nəticələrinə görə, gürcülərin 64 faizi ABŞ-ın Gürcüstanda hərbi baza yaratmasının tərəfdarıdır. Ötən il keçirilən rəy sorğusunda gürcülərin yalnız 51 faizi ABŞ-ın Gürcüstanda hərbi baza yaratmasına tərəfdar çıxmışdı. Edison Research şirkətinin ekspertləri hesab edir ki, ABŞ hərbi bazası ilə bağlı ötən illə müqayisədə ictimai rəydəki kəskin dəyişiklik Qarabağda baş verən hərbi əməliyyatın təsirinin nəticəsidir. Ekspertlər hesab edirlər ki, bu, gürcülərin təhlükəsizliklə bağlı narahatlıqlarının nəticəsidir.

ABŞ-ın Gürcüstanda hərbi baza yaratmaqla bağlı müzakirələrə başlaması ictimai-siyasi xadimlərin müraciətləri ilə yanaşı, rəsmilərin də bir sıra açıqlamalarından aydın görünür. Gürcüstanın Baş naziri Georgi Qaxariya Mayk Pompeo ilə görüşdə ABŞ-ı öz təmsilçiliyini artırmağa çağırıb. Ekspertlər söhbətin hərbi təmsilçiliyikdən getdiyinə şübhə etmirlər. Çox böyük ehtimalla, ABŞ-ın Gürcüstanda hərbi baza yaratması ilə bağlı qərarı növbəti prezident verəcək. Ancaq Mayk Pompeo dekabr ayında Konqresdə ABŞ-ın xarici siyasəti ilə bağlı hesabatla çıxış edəcək və Vaşinqtonun qarşısında duran vəzifələrlə bağlı fikirlərini açıqlayacaq. Ekspertlər hesab edirlər ki, gürcü siyasətçilər də məhz bu məqamdan yararlanıb, Pompeonun hərbi baza ilə bağlı məsələni gündəmə gətirməsini istəyirlər. Co Baydeninin prezidentliyi dövründə isə bu məsələnin həllinə gürcülərin çox böyük ümidi var. İki günlük səfərdən sonra Pompeo Gürcüstanı tərk etsə də, öz köməkçisi Filipp Rikeri Tbilisidə saxlayıb. Belə görünür ki, ABŞ Cənubi Qafqazdakı mövcudluğunu Gürcüstan üzərindən həyata keçirmək siyasətinə sadiqdir və yaxın zamanlara bu siyasət yeni mərhələyə keçəcək.

ABŞ, Rusiya, Fransa və Türkiyənin noyabrın 10-dan sonrakı müddət ərzində bölgə ilə bağlı siyasətini təhlil etdikdə Cənubi Qafqaz uğrunda mübarizənin həlledici mərhələsinin başladığını görmək olar. Bu mübarizə İranın həlelik iştirak etməməsi Tehranın oyundan kənarda qalması anlamına gəlməməlidir. Çox güman ki, İranın oyuna daxil olmaq istəyini yaxın günlərdə müşahidə edəcəyik. İranın prosesə qoşulması belə, Cənubi Qafqazda böyük dövlətlərin təsir dairəsi uğrunda mübarizəsinin başlaması bölgənin narahat günlərinin qarşıda olduğundan xəbər verir.

***Newtimes.az***
***Xaqani Cəfərli***

## DTX livanlı muzdlu-terrorçunu məsuliyyətə cəlb etdi



Müxtəlif xarici ölkələrin vətəndaşlarının muzd müqabilində Ermənistandan Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində keçirilməklə qanunsuz silahlı birləşmələr, terrorçu dəstələr halında döyüşlərə cəlb edilmələri ilə bağlı çoxsaylı faktlarla dair kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.

SİA Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən xəbər verir ki, aparılan araşdırmalarla Livan Respublikasının vətəndaşı Viken Eulcekcianın, həmin ölkənin digər vətəndaşı Hovak Kikiyan, habelə ayrı-ayrı xarici ölkə vətəndaşları ilə birgə qabaqcadan razılaşdırılmış konkret muzd müqabilində Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində hərbi əməliyyatlarda iştirak etmələrinə və terrorçuluq əməlləri törətmələrinə əsaslı şübhələr yaranmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə Viken Eulcekcian Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (Muzdluluq), 214.2.1-ci və 214.2.3-cü (Terrorçuluq), 228.2.1-ci (Qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə), 279.1-ci (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmişdir.

# "Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq"

## *Laçının Xanalılar kəndində şəhid olan polkovnik leytenant Ruslan Fuad oğlu Tağıyev*







1 Dekabr, 2020-ci il tarixində Azərbaycanın əzəli torpağı olan Laçın rayonu öz sahibinə - azərbaycanlılara qaytarıldı. Öz torpaqlarını işğaldan azad olunması uğrunda, istiqlal yolunda şəhid olanları xalqımız heç vaxt unutmayacaq və yüksək tutacaqdır. Belə igidlərdən biri də noyabr ayının 4-ü Laçının Xanalılar kəndində şəhid olan və şəhid general-mayor Polad Həşimovun yaxın dostu, döyüş yoldaşı olan polkovnik leytenant Tağıyev Ruslan Fuad oğludur. O, 1982-ci ildə iyun ayının 12-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində dünyaya göz açıb. İsmayıllı rayonu 3 saylı orta məktəbdə orta təhsilini başa vurub. 1999-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2004-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda "N" saylı hərbi hissədə tabor kəşfiyyat tağım komandiri, 2005-2010-cu illərdə Kəngərli rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, 2010-2012-ci illərdə Culfa rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölmə rəisi olub.

2012-2014- cü illərdə Ali Hərbi Akademiyada təhsilini davam etdirir. 2014-2017-ci illər arasında Şəmkir rayonu "N" saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi rəisi, 2017-2020-ci illər arasında Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Vətənə xidməti ərzində bir sıra sertifikatlar, medallar və təşəkkürnamələr ilə təltif olunub.

2019-cu ilin fevral və iyun aylarında ikili razılaşma əsasında Çinin Pekin şəhərində ölkəmizi təmsil edib və hərbi biliklərini artırmaq məqsədilə təhsilini davam etdirib. 2020-ci ilin oktyabrında isə Türkiyəyə doktorantura təhsili almağa yollanacaqdı. Lakin Vətən müharibəsi başlayan zaman övladları olan Fuad, Polad və 3 yaşlı Nurayı həyat yoldaşına əmanət edərək ezamiyyətə gedirəm, deyir, ailəsi bir neçə gün sonra onun döyüşdə olduğunu öyrənir. Atası ilə söhbəti zamanı bu sözləri deyir: "Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq".

Həyat yoldaşı dəfələrlə diqqətli, ehtiyatlı olmağı ona tapşırsa da polkovnik-leytenant şəhidlərin heç birindən artıq olmadığını bildirir.

Qardaşı Həsən Tağızadənin sözlərinə görə, "Verilən məlumatlara əsasən, onun artilleriya atəşinə tutulan əraziyə tək başına "pikap" tipli nəqliyyat vasitəsilə gedərək şəhidləri, yaralıları, üzvləri qopmuş yaralıları çıxardığını bilirik".

Vətən uğrunda canını fəda edən igid zabitimiz vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak edir. Füzuli, Zəngilan, Cəbrayıl rayonlarında gedən şiddətli döyüşlərdə iştirak edir, son döyüşü isə Laçın Xanalılar kəndində olur. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur. 38 illik ömrünün 21 ilini vətən xidmət edir və 21 illik vətənə qüsursuz xidməti ilə bağlı vətən müharibəsində əvvəl medal ilə təltif olunur. Ruhun şad olsun igid vətən oğlu, Azərbaycan səni heç vaxt unutmayacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Hikmət Babaoğlu: "Azərbaycan xalqı qalib statusu əldə etdi"



"Laçın rayonunun işğaldan azad edilməsilə Azərbaycanın ən yeni siyasi tarixinin daha bir mərhələsi arxada qaldı. Müqayisəli təhlil aparmaq istəsək görəcəyik ki, 2020-ci il sentyabr ayının 27-dən başlayaraq dekabr ayının 1-nə qədər davam edən bu mərhələ cəmisi 64 gün çəksə də əslində nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda tamamilə fərqli və yeni bir eranın başlanğıcını yaratdı. Ona görə də 44-günlük aktiv müharibə fazası və sonrakı 20 gündə 3 rayonumuzun bir güllə atılmadan azad edilməsi elə bir mühüm hadisədir ki, xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Yəni təqribən 100 il davam edən və ,,Dağlıq Qarabağ,, problemi adlandırılma məsələ birdəfəlik və həmişəlik heç bir staus olmadan həll edildi". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyü təmin olundu: "Azərbaycan xalqı məğlub edilmiş xalq statusunda təqdim edilməkdən qurtularaq qalib xalq statusu əldə etdi. Milli birliyin və bərabərliyin simvoluna çevrildi. Hərb və diplomatiya tarixində bütün dünyada heyrətlə qarşılanan yeniliklərə imza atdı. Ancaq bunlar da məsələnin hamısı deyil Sovet İttifaqının dağılması prosesində etnik separatçılıqla müşahidə edilən müharibələr tarixində dönüş yaratmaqla yeni nümunə ortaya qoydu. Vaxtilə dünya siyasətinin fərqli qütblərində yer alan qonşu dövlətlərin maraqlarını qarşılıqlı şəkildə bir araya gətirərək və milli maraqlarımızla uzlaşdıraraq regionda Türkiyə-Rusiya əməkdaşlığının fundamental əsaslarını formalaşdırdı. Beləliklə böyük bir strateji rayonda yeni güc balansı yaratmaqla bu yeni geosiyasi tarzalıqda özünün mühüm yerini və rolunu müəyyən etdi və s. Bütün bunlar isə o qədər sürətlə baş verdi ki, dünya siyasətini müəyyən edən güc mərkəzlərinin bir çoxu əslində sadəcə hadisələri kənardan izləməklə ona əsla müdaxilə edə bilmədilər".

Ekspert bildirib ki, biz çox radikal və aktiv müdaxilə cəhdlərinin də şahidi olduq: "Beləliklə hazırda Azərbaycan yeni reallıq yaratmaqla özünə mühüm strateji perespektiv təmin edib. Bu reallığı yaradan Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonun işğaldan azad edilməsi münasibətilə xalqımıza müraciət edərkən bir sıra mühüm məsələlərə toxunub. O cümlədən milli iradəmizə qarşı addım atmaq niyyətində olanlara yenə sərt ismarıclar göndərərək bildirdi ki, əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və Bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Bu fikirlər bir daha Azərbaycanın qətiyyətini , milli iradəsini göstərməklə eyni zamanda hələ də yaranmış yeni reallığı həzm etməyən, onu pozmaq istəyənlərin olduğunu göstərir. Ancaq bütün bunlar şübhəsiz ki, yeni reallığı dəyişə bilməz və hazırda Azərbaycan regionun lider və qalib ölkəsi kimi öz yeni gələcəyini inşa edir".

H.Babaoğlu vurğulayıb ki, Prezident İlham Əliyev yeni mərhələdən danışarkən bildirdi ki, bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə göstərəcək. Doğurdan da ölkəmizdə hamı müşahidə etdiyi təcrübədən bilir ki, erməni vəhşi quldurları tərəfindən dağıdılan, viran edilən kəndlərimiz, şəhərlərimiz ən qısa zamanda bərpa edilərək məskunlaşdırılacaq, insanlarımız öz doğma yurdlarına qayıdacaqlar".

**Aysel Məmmədova**

# Hulusi Akar: "Türkiyə-Rusiya Birgə Mərkəzinin inşası gedir"



"Hazırda Türkiyə-Rusiya Birgə Mərkəzinin inşası gedir. Çox qısa bir müddətdə yoldaşlarımız orada vəzifə başına keçəcək". SİA "Anadolu"ya istinadən xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Hulusi Akar söyləyib. "Türkiyə və Rusiya generalları işləyəcək, Türkiyə və Rusiya zabitləri atəşkəsin müşahidəsi üçün birlikdə fəaliyyət göstərəcək", - o bildirib.

# "Xəstəliklə mübarizəyə səfərbər olmalıyıq"



"Koronavirusa yoluxanların sayının gündən-günə artması, sözsüz ki, gücləndirici tədbirlərin görülməsini zərurətə çevirir. Çünki bu qorxunc xəstəliyin qarşısının alınmasında heç bir güzəştə yol verməK və arxayınlaşmaq olmaz." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komissiyasının sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, maarifləndirmə tədbirlərinin kifayət qədər olmasına baxmayaraq yenə də qoyulan qaydalar insanlar tərəfindən pozulur.

"Deyilənlərə, əyani nümunələrə hərtərəfli əməl edilmir. Hətta xəstə olan bəzi insanlar belə, icazəsiz olaraq ictimai yerlərdə görünür, digərlərini yoluxdurur və buna adi hal kimi baxırlar. Bu, yolverilməzdir və əlbəttə ki, xəstəliyin yayılmasına zəmin yaradır. Belə olan halda, tədbirlər sərtləşdirilməli, məsuliyyətin artırılması mühüm tədbirlər görülməlidir. Əks təqdirdə, əhali daha çətin vəziyyətə düşə və xəstəliyin qarşısının alınması böyük problemlər yarada bilər. Hər bir kəs pandemiyanın törətdiyi çətinlikləri və insan orqanizminə, bəşəriyyətə, vətənimizə vurduğu ziyanı dərindən anlamalı, xəstəliyin aradan qaldırılması üçün öz dəstəyini əsirgəməməlidir. Qarabağ uğrunda döyüşlərdə qalib çıxan xalqımız, xəstəliyə qarşı mübarizədə də qalib olmalıdır. Hər birimiz xəstəliklə mübarizəyə səfərbər olmalıyıq", deyə Tahir Rzayev bidlirib.

# TƏBİB: Bu insanlar koronavirusu ağır keçirir



Azərbaycanda koronavirusa yoluxan insanların 81 faizə qədəri xəstəliyi yüngül simptomlarla keçirir. SİA-nın məlumatına görə, bunu TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun üzvü Nəzrin Mustafayeva keçirilən brifinqdə deyib.

N.Mustafayeva bildirib ki, həmin xəstələr evdə müalicə oluna bilirlər. O qeyd edib ki, virusu əsasən ürək-damar xəstəliyi olan, şəkərli diabet, xroniki böyrək çatışmazlığı, arterial hipertenziyası, xərçəng xəstəliyi, xroniki xəstəliyi olan insanlar ağır keçirir. TƏBİB rəsmisi bildirib ki, bəzi insanlar həkim təyinatı olmadan antibiotiklərlə, sistem vurulması və digər dərman peraparatları ilə özlərini müalicə etməyə çalışırlar: "Lakin sonrakı dövrlərdə daha da ağırlaşmış hallarda xəstəxanalara müraciət edirlər ki, bu da çətinliklər yaradır". Bütün bunların yolverimməz olduğunu bildirən N.Mustafayeva panikaya yol verilməməyin vacibliyini qeyd edib.

# İgidlərimiz təltif olunacaq



## Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medalları təsis olunub

***Xalqımızın igidlik göstərmiş övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirlər. Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır. Əlbəttə ki, tarixi qələbəni bəzə yaşadan Azərbaycan Prezidenti İlham Əliyevdir, Müzəffər Azərbaycan Ordusudur. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasını ilə nəticələndi. Artıq 30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımıza ayaq basırıq.***

Bu gün Şuşadan ucalan azan səsi əzəli, tarixi Qarabağa yayılır və torpaqlarımızda üç rəngli Azərbaycan bayrağı dalğalanır. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Xalqın bir məqsəd uğrunda yumruq kimi birləşməsi düşməni qısa bir zamanda torpaqlarımızdan uzaqlaşdırdı. Xalqımızın igidlik göstərmiş övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirlər. “Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm” - deyən Cənab İlham Əliyev müvafiq göstəriş vermişdi.

Artıq Cənab Prezidentin göstərişi ilə Azərbaycanda yeni ordenlər və medallar təsis edilir. Dövlət başçısı Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi iləəlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsvis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanunun tətbiq edilməsi ilə bağlı, eləcə də “Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə Fərmanlar imzalayıb. Yeni veriləcək ad və medalların təsviri Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir. Yeni ad isə “Vətən müharibəsi qəhrəmanı” adıdır. Yeni təklif olunan 2 ordendən biri “Zəfər”, digəri isə “Qarabağ” ordenidir. Medallara gəlincə isə, “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalı, “Füzulinin azad olunmasına görə” medalı, “Vətən müharibəsi iştirakçısı” medalı, “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” və s. Vətən müharibəsində torpaqlarımızın düşməndən alınmasında qəhrəmanlıq, şücaət göstərən şəxslər təltif olunacaqlar. Bundan başqa, döyüşdə qəhrəmanlıq, şücaət göstərən vətən oğullarına “Vətən Müharibəsi Qəhrəmanı” adı da veriləcək.

Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Şuşa, Kəlbəcər, Ağdam və digər şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif ediləcəklər. Hər bir orden və medalın spesifik görünüşü var. Azərbaycan Respublikasının “Qarabağ” ordeninin ümumi təsviri belədir. 900 əyarlı qızıldan hazırlanmış, yuxarı hissəsi hər iki ucu bükülmüş lent formalı, qalan hissəsi üç təbəqəli konturlanmış 41 mm x 37 mm ölçülü oval formalı lövhədən ibarətdir. Ordenin ön tərəfində lentin mərkəzində “QARABAĞ” sözü yazılmışdır. Lövhənin daxili konturunun içərisində tünd yaşıl minalı fonda dəbilqə, iki kəsişən qılınc, aypara və ulduzdan ibarət kompozisiya təsvir olunmuşdur.

Lövhənin aşağı hissəsindən yuxarıya doğru sol və sağ tərəflərdə palıd çələngləri təsvir olunmuşdur. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır. Ordenin arxa tərəfi hamar səthlidir, mərkəzində ordenin seriyası və nömrəsi həkk olunmuşdur. Orden paltara bərkidilmək üçün elementi olan 52 mm x 15 mm ölçülü tünd yaşıl minalı bükülmüş lent formalı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhənin üzərində üfüqi vəziyyətdə nizələr həkk olunmuşdur. Lentin mərkəzində dairəvi lövhə yerləşdirilmişdir. Dairəvi lövhənin mərkəzindən yuxarı hissəsində üzəri xətlərlə işlənmiş ikitərəfli şüalı səkkizguşəli ulduz həkk olunmuşdur. Bütün bunlar dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

# Vüqar Rəhimzadə: “Azərbaycan COVID-19-la mübarizədən az itki ilə çıxan ölkələr sırasında olacaq”

***“Hazırda dünya COVID-19-un ikinci dalğasını daha ağır şəkildə yaşayır. Virusa yoluxma və ölüm hallarının statistikası həyəcan təbili çalır. Koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə başlandığı gündən dövlətimizin başçısı İlham Əliyev dünyaya bu mesajı ünvanladı ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Təcrüə mübadiləsi, səylərin birləşdirilməsi nəticəsində bu virusa yoluxmanın coğrafiyasının genişlənməməsinə, ən əsası ölüm hallarının qarşısının alınmasına nail olmaq mümkündür.***



Təbii ki, əsas olan başlanğıc mərhələnin düzgün seçilməsi, özünütəcridi özünəqapanma ilə eyniləşdirməyərək birgə müzakirələr əsasında çıxış yollarını axtarmaq idi. Azərbaycanın ilk gündən koronavirus pandemiyasına qarşı istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda həyata keçirdiyi tədbirlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək dəyərləndirildi. Bu proqnoz səsləndirildi ki, Azərbaycan COVID-19-la mübarizədən az itki ilə çıxan ölkələr sırasında olacaq. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşlərinin keçirilməsi, həmçinin cənab İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürməsi, bir-birinə əks qütbləri pandemiyaya qarşı mübarizə əsasında bir araya gətirməsi, 30-dan artıq ölkəyə humanitar yardım göstərməsi və sair kimi addımlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinə və roluna yeni dividendlər qazandırdı”. Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, Türk Şurasının Zirvə Görüşündə cənab İlham Əliyev pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələrin və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi olduğumuzu diqqətə çatdırdı: “Belə bir təhlükənin hər bir ölkənin qapısını döydüyü şəraitdə dövlətimizin başçısının ölkəmizlə yanaşı, digər dövlətlərin də vəziyyətini düşünərək nümunəvi addım atması, birlik, həmrəylik çağırışını etməsi Zirvə Görüşündə yüksək dəyərləndirildi. Bir daha vurğulandı ki, pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlmək mümkündür. Türk dünyasını bir araya gətirən cənab İlham Əliyev 120 ölkənin təmsil olunduğu Qoşulmama Hərəkatının Zirvə Görüşünün keçirilməsinə nail oldu. Hər bir tədbir aparılan müzakirələrlə yanaşı, sonda qəbul olunan qərarlarla, Birgə Bəyannamə ilə diqqət çəkir”.

Baş redaktor qeyd edib ki, pandemiyaya qarşı mübarizə tədbirlərinə başlandığı vaxtdan dövlətimizin başçısı İlham Əliyev ölkə daxilində “Biz birlikdə güclüyük!” çağırışını irəli sürərək, hər kəsi bu amal ətrafında birləşməyə, səfərbər olmağa çağırdı: “Bu çağırış eyni zamanda, hər birimizin üzərinə bu məsuliyyəti qoydu ki, yeni qaydalarla yaşamağı öyrənməliyik. Bu qaydalar şəxsi gigiyenaya riayət etmək, tibbi maskadan, dezinfeksiya vasitələrindən istifadə, sosial məsafənin gözlənilməsi, ehtiyac duyulmadığı təqdirdə evdən çıxmamaqdır”.

V.Rəhimzadə bildirib ki, bir neçə ay bundan əvvəl COVID-19-un yenidən aktivləşəcəyi barədə səslənən proqnozlar artıq öz təsdiqini tapır: “Artıq payız aylarından başlayaraq virusa yoluxanların sayında kəskin artım qeydə alınıb. Çox qorxunc proqnozlar səslənməkdədir. Belə bir vaxtda “COVID-19-la mübarizədə birlikdəyik!” çağırışına uyğun olaraq BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təqdirəlayiqdir. Dövlətimizin başçısı İlham Əliyevin bu təşəbbüsü həm Qoşulmama Hərəkatı ölkələri, həm də digər BMT-yə üzv dövlətlər tərəfindən dəstəklənmişdir. 130-dan çox ölkə öz rəsmi dəstəyini ifadə etmişdir. Cənab İlham Əliyev bu təşəbbüsü ilə BMT tarixində bir ilkə imza atmışdır. Məlum olduğu kimi, 2020-ci ilin iyulun 10-da Xüsusi Sessiya rəsmi olaraq öz işinə başlamışdır. Çoxsaylı müzakirələr zamanı Xüsusi Sessiyanın sədrliyi, keçirilmə qaydaları və digər önəmli məsələlər barədə qərarlar verilmişdir. Müzakirələrin sonunda “Koronavirus xəstəliyi (COVID-19) pandemiyasına cavab olaraq Baş Assambleyanın Xüsusi Sessiyası” ilə bağlı qətnamə qəbul edilmişdir ki, bu sənədə əsasən BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş Xüsusi Sessiyası 3-4 dekabr tarixlərində keçiriləcək”.

Baş redaktor bildirib ki, diqqət çəkən məqam işğalçı Ermənistanın hətta qlobal təhdid ilə mübarizədə belə öz çirkin niyyətindən əl çəkməməsidir: “Bütün dünya birliyi COVID-19 pandemiyasına qarşı vahid mövqe nümayiş etdirdiyi halda Ermənistan əvvəldən bu təşəbbüsə qarşı çıxmışdır. Bu qətnamə ilə bağlı müzakirələrdə də Ermənistan ona qarşı çıxmış və təşəbbüsü dəstəkləməmişdir. Amma işğalçı dövlət unudur ki, koronavirusun ən ağır fəsadlarını bu ölkə yaşayır. Hakimiyyətin mübarizə tədbirlərinin həyata keçirilməsi ilə bağlı heç bir təcrübəsinin olmaması işğalçı ölkədə yoluxma ilə yanaşı, ölüm hallarının da pik həddə çatmasına səbəb olub. İşğalçı dövlətin “yeni ərazilər uğrunda müharibə planı”nı həyata keçirmək üçün cəbhə xəttində təxribatlara cəhd etməsi də daxildəki problemlərdən diqqəti yayındırmaq məqsədi daşıyırdı”.

“Günümüzün reallığı budur ki, COVID-19 pandemiyası kimi qlobal təhdidə qlobal bir cavab lazımdır” söyləyən Vüqar Rəhimzadə bildirib ki, BMT bütün dünya dövlətlərinin təmsil olunduğu ən böyük beynəlxalq platforma kimi bu cavabın tapılmasında əsas rol oynamalı idi. Bu mənada bəşəriyyətin BMT-dən böyük gözləntiləri var. Bu təşəbbüs pandemiyaya qarşı mübarizədə müstəsna əhəmiyyətə malikdir və inanırıq ki, bu müzakirələr nəticəsində dünyanı pandemiya bəlasından xilas edə biləcək önəmli qərarlar veriləcək.

# “Hərbi zəfərimiz olmasaydı...”



***“Noyabrın 20-də Ağdam, noyabrın 25-də isə Kəlbəcər rayonu bir güllə belə atılmadan və şəhid vermədən işğaldan azad edildi. Laçın rayonunun işğalçılardan tam boşaldılması isə dekabrın 1-də baş tutdu. Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanan birgə bəyanata uyğun olaraq bu rayonlarımızın qrafik üzrə azad olunması bizim böyük siyasi uğurumuzdur. Bütün bunları şərtləndirən əsas amil bizim düşmən üzərində möhtəşəm Qələbə qazanaraq onu kapitulyasiyaya məcbur etməyimizdir”. Bu fikirləri SİA-ya millət vəkili Emin Hacıyev deyib.***

Emin Hacıyev bildirib ki, hərbi zəfərimiz olmasaydı, bu siyasi qələbəmiz də mümkün olmazdı. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin Kəlbəcərin azad olunması ilə bağlı xalqa müraciətində bildirdiyi kimi, “Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı”. Beləliklə, Azərbaycan döyüş meydanında, informasiya məkanında və siyasi müstəvidə Qələbə qazandı.

“Bu gün Azərbaycana böyük Qələbə sevincini yaşadan Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, müdrik və uzaqgörən siyasəti, qətiyyəti sayəsində Azərbaycan Ermənistanın 30 il davam edən bütün bu işğalçılıq siyasətinə son qoyaraq, öz ərazi bütövlüyünü təmin etdi” - deyən E.Hacıyev qeyd edib ki, Kəlbəcərin işğaldan azad olunması, həmçinin BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin icrasının təmin olunması deməkdir.

O, işğaldan sonra ərazidə qeyri-qanuni məskunlaşdırılan ermənilərin Kəlbəcəri təhlükəsiz şəkildə tərk etməsi, bütün əşyalarını götürməsi üçün lazımi şərait yaradıldığın bildirib. Hansı ki, 1993-cü il aprelin 2-də Kəlbəcər Ermənistan tərəfindən işğal olunan zaman azərbaycanlılar öz yurd-yuvalarından ayaqyalın qovulmuş, zorakılıqlara məruz qalmış, onlar arasında həlak olan, yaralanan, itkin düşənlər olmuşdu. Budur Azərbaycan və Ermənistan arasındakı daha bir fərq. Məlumdur ki, ermənilər Kəlbəcəri tərk edərkən evləri, meşələri yandırıb, suları çirkləndirərək ekoloji terror törədiblər. Həmçinin, düşmən illərdir tarixi-mədəni irsimizə qarşı vandallıq edib, məscidlərimizi dağıdıb, yerlə-yeksan edib. Maraqlıdır ki, bütün bunları, o cümlədən Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərindəki mənzərəni, erməni vandallığını görməzdən gələn bəzi Qərb dairələri işğaldan azad edilmiş ərazilərimizdəki qədim Qafqaz Albaniyasına aid olan tarixi abidələrin, kilsələrin taleyindən narahatlıq ifadə etməkdədir. Lakin onlar unudurlar ki, Azərbaycan multikulturalizm, tolerantlıq, dinlərarası münasibətlərlə bağlı yürütdüyü siyasətə görə bütün dünyaya nümunədir.

# Müharibə və Ermənistan iqtisadiyyatı

Ermənistan iqtisadiyyatı koronavirus səbəbindən onsuz da çətinliklər yaşayarkən Dağlıq Qarabağdakı münaqişənin yenidən alovlanması ilə daha da çətin bir duruma düşüb. SİA-nın verdiyi məlumata görə, Fitch beynəlxalq kredit reytinq agentliyinin ölkənin kredit reytinqini aşağı salması bunun ən böyük sübutudur.

Fitch Ermənistanın xarici valyutada uzunmüddətli kredit reytinqinin “BB-” dən “B+” səviyyəsinə endirildiyini, reytinq proqnozunun “sabit” səviyyədə olduğunu açıqlayıb. Bu, ilin ilk yarısında Ermənistanda iqtisadi geriləmə proqnozlaşdırıldığından daha kəskin olub. Bunun da dövlət borcunun artmasına səbəb olduğu bildirilir. Dağlıq Qarabağda Azərbaycanla münaqişənin yenidən alovlanması isə onsuz da ağır durumda olan Ermənistan iqtisadiyyatını daha da çətin duruma salıb.



İrəvandakı Qafqaz İnstitutunun əməkdaşı, iqtisadçı Hrant Mikaelyanın bildirdiyinə görə, Dağlıq Qarabağdakı hərbi əməliyyatların iqtisadi fəsadlarının ən böyük yükü xidmət sektoru və maliyyə sisteminin üzərinə düşüb. İqtisadçı Dağlıq Qarabağdakı döyüşlərin Ermənistan iqtisadiyyatına iki cəhətdən təsir etdiyini bildirib: “Xidmət sektoru çətin vəziyyətə düşüb. Müharibə ilə birlikdə ermənilərin gündəlik ictimai fəallığı azalıb və bunun iqtisadi artıma mənfi təsir göstərəcəyi qaçılmazdır. Müharibə maliyyə sisteminə də mənfi təsir göstərib. Dövlətin müharibə, qaçqınlar və infrastruktur problemləri ilə əlaqədar öncədən hesaba alınmamış əlavə xərclər əmələ gəlib”.

“BBC Türkçe”-yə açıqlamasında Türk Erməni Biznes İnkişafı Şurasının həmsədri Kaan Soyakın sözlərinə görə, toqquşmalar başlandıqdan sonra Ermənistanda bizneslər və banklar dayanma nöqtəsinə yaxınlaşdı. Müharibənin davam etdiyi zamanda malların daşınmasında çətinliklər dərinləşdi və iflaslar baş verdi. K.Soyak Dağlıq Qarabağdakı qarşıdurmaların birbaşa Ermənistanın paytaxtı Yerevanda özünü göstərdiyini bildirib: “İşlər dayanıb, pandemiya ilə iqtisadiyyata onsuz da ciddi ziyan dəyib və Dağlıq Qarabağdakı döyüşlər ticarət sektorunun dayanmasına və malların daşınmasına səbəb olub”.

Ermənistan iqtisadiyyatı Dağlıq Qarabağdakı döyüşlərdən əvvəl də koronavirusa görə geriləmişdi. Bu ilin əvvəlinə qədər inamlı artım göstərən Ermənistan iqtisadiyyatına koronavirus ciddi təsir göstərdi. May ayında ölkə iqtisadiyyatı əvvəlki ilə nisbətən 12,8 faiz geriədi. Ermənistan Mərkəzi Bankı bu il koronavirusa görə ölkə iqtisadiyyatının 6,2 faiz azalacağını təxmin edirdi. Qurum 2021-ci ildə isə iqtisadi artımın yenidən 5 faizə yüksələcəyini proqnozlaşdırırdı. Amma gözləntilər müharibə səbəbindən fiaskoya uğradı. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) da bu il Ermənistan iqtisadiyyatının kifayət qədər azalacağını proqnozlaşdırır.

Erməni ekspertlərin rəqəmlərinə inansaq ölkə iqtisadiyyatında 2019-cu ildə 7,6 faiz artım olub. Bu, 2008-ci ildən bəri ən sürətli artım idi. İqtisadçı Hrant Mikaeliana görə, artımı təmin edən əsas sektorlar turizm, informatika, mədənçilik və qumar sahələri idi. Norveçdə yerləşən Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü qurumunun rəyinə görə, Ermənistanda mədən sənayesi 2015-ci ildə 50 faiz həcmində artıb. Bu, Ermənistanın ümumi sənaye istehsalının 17 faizi deməkdir. Mədənçıxarma şirkətlərinin Ermənistan büdcəsinə verdiyi pay 2017-ci ildə 61 faiz artaraq, ümumilikdə 7,1 faiz təşkil edib. Təbii ki, bütün bunlar Ermənistan tərəfindən Kəlbəcər rayonunun işğalından sonra Zod qızıl mədəninin istismarı nəticəsində baş verib. Amma Azərbaycanın Şanlı Ordusu Ermənistanın və bütün ermənilərin arzusunu gözündə qoydu. Ərazilərimizi işğaldan azad etməklə yanaşı Azərbaycan Ordusu həm də Ermənistanın iqtisadiyyatına ağır zərbə vurdu, yataqda çalışan minlərlə erməni işsizlər ordusuna qoşuldu, İrəvanın cibinə axan tonlarla qızıl ünvanını dəyişdi. Haqq-ədalət yerini tutdu.

Ermənistanda gənclər arasında işsizlik göstəricisi 35 faizdir. Bu, ölkədəki işçi qüvvəsinin digər ölkələrə köç etməsinə səbəb olur. Ermənistan əhalisi 3 milyona yaxın olduğu halda, 7 milyon erməni xaricdə yaşayır. Ermənistan XİN-dən verilən açıqlamada bildirilir ki, xaricdə yaşayan erməniləri ölkəyə qayıtmağa və məşğulluğa qatılmağa təşviq edən siyasət yoxdur, amma cəhd edilir: “Korrupsiyanı ortadan qaldıraraq, ədaləti bərqərar edərək sistemə inamı qaytaracağıq, bu onların geri dönməsini təmin edəcək ən əsas elementdir”.

İqtisadçı Sam Bhutinin Eurasianet xəbər saytında yazdığına görə, Ermənistan iqtisadiyyatının daha bir problemi ondan ibarətdir ki, o, Rusiyadan asılıdır. Rusiyanın Ermənistanın ən böyük ticarət tərəfdaşı və immiqrasiyanın ən çox istiqamətləndiyi ölkə olması, Ermənistan iqtisadiyyatını Rusiyada baş verən siyasi və iqtisadi hadisələrə qarşı kövrək vəziyyətə salır.

2018-ci ildə Ermənistan ixracının 28 faizi Rusiyanın payına düşüb, onun idxalının dörddə biri isə Rusiyadan təmin olunub. Ermənistan iqtisadiyyatının daha bir böyük problemi ondan ibarətdir ki, onun iki sərhədi bağlıdır. Dağlıq Qarabağ münaqişəsi uzun illər həll olunmadığına görə Türkiyə və Azərbaycanın Ermənistanla sərhədləri bağlıdır. İqtisadçı məqaləsində yazır ki, bu sərhədlərin bağlanması Ermənistanı regionda hazırlanan nəhəng infrastruktur layihələrindən uzaq qalmasına səbəb olub.

İqtisadçı Hrant Mikaelyan vurğulayır ki, Ermənistanın İran və Gürcüstan ilə sərhədləri həm iqlim, həm də siyasi amillərə görə etibarlı deyil: “Rusiya Ermənistanın ən böyük ticarət tərəfdaşı olduğuna görə, ölkədə ticarətin ən böyük hissəsi Gürcüstandan keçən bir avtomagistral vasitəsilə həyata keçirilir. Qış düşəndə yağan qara görə ticarət bir-iki aylıq dayana bilər. Digər tərəfdən, bu marşrut Rusiya ilə Gürcüstan arasında münasibətlərə görə də siyasi cəhətdən kövrəkdir. İranla ticarət yolu da İranın bəzi qonşuları və ABŞ-la münasibətləri baxımından siyasi cəhətdən həssasdır. Türkiyə ilə sərhəd açıq olsaydı, Ermənistan həm Türkiyəyə, həm də Avropaya daha çox ixrac edə bilərdi, öz iqtisadiyyatını çeşidləndirə bilərdi”.

Fitch beynəlxalq kredit reytinq agentliyi Ermənistandakı siyasi və iqtisadi sabitliyin davam edəcəyini və Dağlıq Qarabağdakı döyüşlərin Ermənistanın iqtisadi və maddi cəhətdən zərər görəcəyi nöqtəyə gətirməyəcəyini proqnozlaşdırmışdı, amma Türkiyə-Ermənistan Biznes İnkişafı Şurasının həmsədri Kaan Soyak bununla razılaşmır: “Qışın gəlməsi ilə enerji xətlərindəki hər hansı bir problem, nəqliyyat daşımalarının Rusiyanın əlində olması səbəbindən yaranan hər hansı bir problem iqtisadi cəhətdən əhalini daha çətin duruma salacaq”.

## ŞOK KƏŞF: Keçi südündəki bu maddə koronavirusu məhv edir




Türk alimləri bütün dünyanın çarə axtardığı koronavirus epidemiyası ilə mübarizədə yeni və heç kimin təsəvvür etmədiyi bir yeniliyə imza atıblar. SİA-nın türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, alimlər keçi südündəki bir maddənin virus qorunmasında təsirli olduğu təsbit ediblər. Prof. Dr. Tuğba Akbay bildirib ki, keçi südündəki həmin maddə yoluxmaya qədər istifadə edilməlidir ki, yoluxmanı önləyə bilsin.

“Xəstələnmədən əvvəl belə qoruyucu bir zülalımız varsa, bunu dəyərləndirməliyik”, deyə vurğulayan professor əlavə edib ki, keçi südündən alınan beta laktoglubini müəyyən fermentlərlə müalicə etdikdən sonra bioaktiv peptid dediyimiz hissələrin koronavirus üzərində təsirli olduğunu gördük: “Bunun ardından virusun və virusun bütün bağlanma nöqtələrinin kompüter vasitəçiliyi ilə əlaqəli olduğunu müəyyən etdik”. Professor əlavə edib: “Virus təkbaşına təsirsizdir. Hüceyrələr üzərində hərəkət edərkən özü üçün əlverişli mühit tapar və içəri girər. Əldə etdiyimiz bioaktiv peptidlər virusu təsirsiz hala gətirir, eyni zamanda hüceyrələrdəki, xüsusən də ağciyər hüceyrələrindəki reseptorları üzərindən alır. Siz də onun bura gəlməyinə və oturmasına mane olursunuz”.

# Bəşəriyyət üçün təhlükəli epidemiya: qalib gələ biləcəyikmi?

***Koronavirus epidemiyasını yarımçıq tədbirlərlə məğlub edə bilərikmi? Yoxsa dayanaq və peyvəndi gözləyək? İndi virus niyə güclüdür? Harada hansı nəticələr verdi və hansı tədbirlər gördülər? Nə vaxt və necə yarandı? Siyasi Məlumat Mərkəzinin baş direktoru Aleksey Muxin bu barədə "Pravda"nın Qeyri-adi Həftə proqramının aparıcısı İnna Novikovaya danışıb.***

***- Aleksey, son vaxtlar hadisələr xoş deyil. Karantinlə, koronavirus pandemiyası ilə, indi bizi əhatə edən reallıqla başlayaq. Yazda narahat idik və qorxurduq, amma bu, indiki ilə müqayisədə bir uşaq bağçasının orta qrupu səviyyəsində idi.***

- Niyə?

***- Heç olmasa yoluxma sayına görə.***

- Kəmiyyət burada heç bir rol oynamır. Hörmətli epidemioloqlarımızın bildirdiyinə görə, dünyada 500 milyondan çox insan yoluxub. Virusun bunlardan uzağı 1 faizi üçün ölümcül olduğuna görə, bəşəriyyət üçün çox ciddi bir təhdiddən danışa bilmərik.

Ancaq bəşər sivilizasiyası üçün təhlükə, daha əvvəl də söylədiyimiz formada ortaya çıxdı. Müxtəlif ölkələrdəki sivil toplumların reaksiyası bu ölkələrin iqtisadiyyatları üçün çox spesifik və çox dağıdıcı idi.



Buna görə də, indi həqiqətən nə baş verdiyini düşünür, gələcəyimizi proqnozlaşdırmağa və hətta dizayn etməyə çalışırıq. Və bu bizim təbii haqqımızdır.

İlk dalğa olanda virus insanla tanış oldu, zəif tərəflərimizi tapdı. İndi ayrı-ayrı qruplara, necə deyərlər, COVID-in ilk dalğasından düzgün nəticə çıxarmayanlara təsir göstərir.

Bu:

məhdudiyyətsiz istehlakı azaltma,*

ətrafı zibilləməyi dayandırma,*

dünya okeanına zibil atmağı dayandırma,*

yaşıl iqtisadiyyatı inkişaf etdirmək və s. idi.*

Bu məhdudiyyətsiz istehlaka qayıdan ölkələr və cəmiyyətlər indi 2-ci mərhələdir, üçüncüsü də olacaq, əziyyət çəkəcəklər ta ki, bütün insanlar bu sadə dərsi başa düşülənə qədər.

Bu tələblərə uyğun davranan, bu belə ilə həqiqətən formalaşdırılan və indiki vəziyyətdə insan sivilizasiyasının üzləşdiyi çətinliklərə adekvat cavab verən ölkələr özlərini normal və rahat hiss edirlər.

Özlərini bir araya gətirən və çaxnaşmayan ölkələr uğurla inkişaf edir. Diqqət yetirin ki, Çin iqtisadi böyümə sürətinə qayıdır- Amerika Birləşmiş Ştatlarının onlara qarşı qəribə ittihamlarını tamamilə rədd edərək.

Xatırladım ki, bu tip viruslar Çində olsa da, Amerika alimləri tərəfindən Amerika pulu ilə inkişaf etdirilmişdir. Üstəlik, 2015-ci ildə bu vəziyyət elmi ictimaiyyətdə tamamilə şəffaf idi və heç bir sual doğurmadı. Günahlandıracaq birinə ehtiyac duyduqda ABŞ-da Çin günahkar çıxarmağa çalışdı.

İndi əsas odur ki, bütün bu hadisələrin əsas faydalanıcısının kim olduğunu anlamaqdır. Və bu hadisələrdən əsas faydalananların bu yeni reallıqda yol tapan və yaxşı pul qazanan maliyyə və sənaye qruplarına rəhbərlik edən varlı insanlar olduğu ortaya çıxdı.

Onların mövqelərinin Forbes-də necə yüksəldiyinə diqqət yetirin. Buna görə də çox bədbin proqnozlar hazırlaya bilərəm.

***- Düzgün istehlak nümunəsi olaraq Çini qeyd etdiniz?***

- Xeyr, düzgün reaksiya. Çin risk altında olsa da, əksinə, çox zibil və tullantılar istehsal etdiyi üçün ən zəhərli ölkədir. Nə Paris Sazişinə, nə də hər hansı bir protokola qoşulması təəccüblü deyil. İnadla sənayeləşməsini inkişaf etdirməyə davam edir.

Bəli, bunu daha çox ekoloji cəhətdən təmizləşdirməyə çalışır, amma bu günə qədər heç bir nəticə görünmür. Çin burada pis bir nümunə kimidir, düzdür, bunun öhdəsindən gəldilər, amma yenə də qlobal iqtisadiyyatın lokomotivi olmağa çalışırlar.

Çox məhdud bir ərazidə, üzərində daim duman dayanan sıx bir istehsal zonası inkişaf etdirirlər. Bu cəhətdən, dünya birliyinin yerində olsaydım Çinlə işləyərdim, çünki onlar bizi yenicə çıxmağa başladığımız çökmə vəziyyətinə qaytarmaq riskini daşıyırlar.

***- COVID ilə "uğurlu" münasibətlərinin səbəbi çox intizamlı olmaları, hər şeyi bir anda bağlamaları və düzgün tədbirlər görmələri deyil. Bunu nə İtaliya, nə Rusiya, nə də Amerika həyatlarında heç vaxt etməyəcək. Almaniyada və Avropanın hər yerində karantinə qarşı etirazlar var. ABŞ xəstə və ölülər arasında çempiondur, lakin eyni zamanda koronavirusdan qorunma tədbirlərinə qarşı etirazlar var.***

- Birincisi, Çində neçə hadisə və ölüm olduğu ilə bağlı dəqiq məlumatımız yoxdur, çünki Çin sadəcə, bunu vermir. İkincisi, Çində daxili uçuşlar ləğv edilməyib.

Bəli, bir neçə şəhər bağlandı, hətta bir Vuhan əyaləti bağlandı, amma əslində, bunu yoxlaya bilməzsiniz. Çinin İsveç modelini izlədiyinə dair şübhələr var. Yalnız bütün dünyaya çox ciddi məhdudiyyətlərin olduğunu söylədi, amma əslində epidemioloji təhlükəni adi bir mövsümi xəstəlik kimi qəbul etdi. Belə bir ehtimal da var.

Çində nə baş verir, yalnız çinlilərin sözlərindən bilirik. Onların necə çalışdıqları və bu təhdidi ümumiyyətlə neytrallaşdırmağa çalışdıqları barədə məlumatımız yoxdur. Nəzərə alın ki, hələ də bir peyvəndi yoxdur.

Çin, məlumat yayma və ölkədəki bütün məlumatlar üzərində rəsmi oqanların nəzarəti də daxil olmaqla, təhlükəsizlik duvarının arxasındadır.

Bu, Rusiyanın yolu deyil, çünki Rusiya kifayət qədər açıq, demokratik bir ölkədir. Burada hər kəs özü üçün kütləvi informasiya vasitəsini seçir və azadlığına və ya şüuruna uyğun məlumat yaymağa çalışır.

***Söhbətləşdi: İnna Novikova***
***Tərcümə: Elçin Bayramlı***

# "Bu şanlı qələbə Ali Baş Komandanımızın zəfər müjdəsidir!"



***"Əvvəla bütün xalqımızı, hamınızı, Ali Baş Komandanımız başda olmaqla, əsgərlərimizi təbrik edirəm, çünki biz belə bir şad xəbər aldıq. Bundan gözəl nə gün ola bilər? Şuşanın işğaldan azad edilməsi hamımızın həyatımızda aldığımız ən böyük müjdə idi. Onun ardınca Ağdam, Kəlbəcər, Laçın və digər rayonlarımızın da işğaldan azad olunacağı gün ən xoş günlərimizdir.***

Çünki 30 illik torpaq həsrətinə son qoyan Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun, igid əsgər və zabitlərimizin xalqına verdiyi bu böyük sevinc əvəz edilən deyil. Nəinki kəlbəcərlilər, torpağından, yurdundan didərgin düşən, bəli, didərgin düşən 1 milyondan çox qaçqın və köçkünlərimiz, həmçinin bütün Azərbaycan xalqı ümid edirdi ki, tezliklə bütün torpaqlarımız işğaldan azad ediləcək, ərazi bütövlüyümüz bərpa ediləcək və biz öz torpaqlarımıza qayıdacağıq. Biz həmin günü böyük səbirsizliklə gözləyirdik ki, Kəlbəcərlə bağlı Ali Baş Komandan tərəfindən müjdəli xəbər verilsin. Noyabrın 25-də Ali Baş Komandanımız o müjdəli xəbəri verdi". Bu fikirləri SİA-ya açıqlamasında deyən YAP Kəlbəcər rayon təşkilatının Aparat rəhbəri Qənaət Əsgərov deyib.

Aparat rəhbəri bildirib ki, düşməni torpaqlarımızdan qovaraq Vətən Müharibəsinin 44-cü günü ordumuz Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələri darmadağın etdi və 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi: "44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq".

"1993-cü il aprelin 2-si Kəlbəcərin işğala məruz qaldığı tarixdirsə, 25 noyabr 27 il həsrətində qaldığımız Kəlbəcərimizə qovuşduğumuz tarixi gün Azərbaycanın haqq yolunda ədalətin bərpa olunmasının tarixə yazıldığı gün kimi əbədi qalacaq. Bir daha elə bir qüvvə bizim torpaqlarımıza göz dikməyə cürəti çatmayacaq. Çünki Vətən Müharibəsi bir daha öz gücünü və onlara yerlərini göstərdi",-deyən Q.Əsgərov Kəlbəcərin təbii sərvətlərindən ürək ağrısı ilə danışdı: "Kəlbəcər cənnət məkanıdır. Bütün torpaqlarımız cənnətiməkandır. O cümlədən də Kəlbəcər təbii sərvətləri o qədər zəngindir ki, ermənilər bu illər ərzində rayonu çapıb-talayıblar. Rayonda, civə zavodu, qızıl yataqları, təbii uran yatağı, mərmər yatağı vardı, turizm məkanı idi. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicəbalneoloji təsirə malik mineral su yataqları, alban dövrünə aid xeyli tarixi abidələr var... Ulu Tanrı Prezidentimizi, Ali Baş Komandanımızı qorusun. İnşallah, böyük qayıdışdan sonra Kəlbəcərdə görüşərik. Artıq o günə az qalıb. Müəyyən işlər görüldükdən sonra, az qalıb...".

Q.Əsgərov onu da bildirib ki, ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın qaçırdılar: "Aradan çox illər keçsə də, bunu unutmaq olmaz. Bu gün Kəlbəcəri tərk edən erməni əhalisi rayonun 1993-cü ildə işğalından sonra orada qeyri-qanuni məskunlaşmışdı. Qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla əşyalarını götürür, hətta evlərin dam örtüyü, pəncərə çərçivələri və unitazlarına qədər çıxarıb aparırlar. Üstəlik, yaşadıqları və yaşamadıqları evləri yandırır, meşələrə od vurur, vandallıq edirlər - 27 il əvvəl buradan qovulmuş azərbaycanlıların evlərində yaşayan ermənilər indi həmin evlərə od vuraraq gedirlər. Azərbaycan tərəfi Kəlbəcərdəki erməni hərbi birləşmələrinin ərazidən çıxması üçün humanitar qaydalara tam uyğun olaraq, qabaqcadan razılaşdırılmış müddət ayırdı. Lakin erməni tərəfi işğal zamanı bunların heç birini etməmişdi.

Dövlət başçımızın dediyi kimi, düşməni torpaqlarımızdan iti qovan kimi qovaraq Vətən Müharibəsinin 44-cü günü ordumuz Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələri darmadağın etdi və 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi və bir daha dünyaya sübut etdi ki, 44 gün ədalətli müharibə apararaq, şərəflə qazanılan bu şanlı qələbəmiz Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi yekunu, "30 illik həsrətə son" deyən - Ali Baş Komandanımızın zəfər müjdəsidir!".

***RƏFİQƏ HÜSEYNOVA***

## "Paşinyan qorxuya düşüb"

### "Hraparak" qəzetindən ŞOK DETALLAR!



Paşinyan öz komandasının ona impiçment elan edəcəyindən qorxur. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Hraparak" qəzeti yazır.

"Nikol Paşinyana inamsızlıq hər yerdə, hətta komandasında hökm sürür. Buna görə Paşinyan hərbi vəziyyəti ləğv etməkdən imtina edir, çünki bundan sonra baş nazirə etimadsızlıq göstərmək mümkün olacaq.

Komandanın sədaqətindən əmin olsaydı, rejimi ləğv edərdi, amma komandasının əksəriyyət deputatlarının impiçment başlayadaraq onu təəccübləndirəcəyinə inanır.

Qəzetin mənbəyinin məlumatına görə, hərbi rejimdən irəli gələn bütün məhdudiyyətlərin addım-addım atılacağı gözlənilir. Mitinqlər və media nəşrləri ilə bağlı məhdudiyyətlər artıq qüvvədə deyil, növbəti addım ölkədən çıxma ehtimalını bərpa etmək olacaq. Ancaq hərbi vəziyyət hərbi qüvvələr üçün, qoşunların hərəkəti və digər məqsədləri üçün qalacaq və əsl məqsəd baş nazirə etimadsızlıq nümayişinin qarşısını almaq olacaq", deyə "Hraparak" qəzeti yazır.

***İnam Hacıyev***

# Daxili düşmənlərin erməniçilikləri necə davam edir?

## *Yaxud, Əli Kərimli-Cəmil Həsənli-Gültəkin Hacıbəyli triosunun növbəti məqsədləri bəllidir*

***Bildiyimiz kimi, Qarabağ münaqişəsi sözü artıq keçmişdə qaldı və şanlı Silahlı Qüvvələrimizin dünyaya səs salan 44 günlük zəfər yürüşü nəticəsində işğaldan azad olunmuş Qarabağımızda qalib Azərbaycan küləyi əsməkdədir. Bu reallıq həm də danılmazlıq olmaqla yanaşı, bir gerçəkliyi də sübuta yetirir: Müzəffər Ali Baş Komandanımız, adını tariximizə qalib Sərkərdə olaraq yazan İlham Əliyev qətiyyəti və iradəsi. Bizim qalibiyyət təntənəmizin kökündə-təməlində Onun mübarizlik ruhu, uğurlu hücum diplomatiyası, xalqın tükənməz etimadı və ən əsası, ordu, əsgər və zabit inamı, qəhrəmanlıq şücaətləri dayanmaqdadır. Bir vaxtlar bizə şərtlər qoyan düşmən indi özü məğlub, əzilmiş, məhv olmuş vəziyyətdə Azərbaycanın diktəsi altında çabalamaqdadır. Artıq yollar Qarabağdan keçir və nəinki keçir, eyni zamanda, bu yollar üzərində müqəddəs üçrəngli bayrağımız da sancılır, dalğalanır - şəhidlərimizin qanları, igid əsgər və zabitlərimizin tükənməyən döyüş ruhları sayəsində.***



### Təəssüf ki, bizim düşmənimiz mənfur olması ilə yanaşı, həm də şərəfli düşmən deyil

Diplomatiya deyərkən, biz daha bir reallığı unutmamalıyıq ki, Cənubi Qafqaz regionu hər zaman dünyanın diqqət mərkəzində olan bölgədir və xüsusilə, Dağlıq Qarabağ münaqişəsinin 30 il müddətində işğala məruz qalması faktı ətrafında bir çox təzadlar, mübarizələr aparıldı, nəticədə söz müharibənin oldu və bu müharibədə qalib tərəf biz olduq! Qalib tərəf olduğumuz üçün də söz, məhz bizdədir, bundan sonra da bizdə olacaq. Bu gün regionun digər iki əsas ölkələri - Rusiya və qardaş Türkiyə də əbədi, əzəli qonşularımız olmaqla yanaşı, həm də münaqişədən sonrakı dövrdəki təşəbbüsləri ilə mühüm rol oynamaqdadırlar.

Söz yox ki, düşmənin məkrli, hiyləgər və kinli, ləyaqətsiz olması da kimsəyə sirr deyil. O da əbəs deyil ki, biz azərbaycanlılarda belə bir deyim var: dövlətimizin düşməni də gərək mərd olsun, müharibəni uduzsa belə, həmin məğlubiyyətini qəbul etsin və sülh prosesi dövründə qədəm qoyulanda baş vermiş müharibənin tarixdə qaldığını dərk etsin. Təəssüf ki, bizim düşmənimiz mənfur olması ilə yanaşı, həm də şərəfli düşmən deyil. Biz tarixən müxtəlif xarici ölkələr arasında uzun müddətli hərblərdən sonra onların arasındakı münasibətlərin yenidən qurulması, normallaşdırılması proseslərini müşahidə etmişik. Elə də uzağa getməyərək, fransızlarla ingilisləri, almanlarla rusları və s. onlarla digər bir-biri ilə müharibə aparmış ölkələri misal gətirə bilərik. Təəssüf ki, bu misalı ermənilərə şamil etmək olmaz və bunun üçün yenidən tarixi varəqləməyə də ehtiyac qalmır. Çünki tarixdə hər şey yazılıb.

Divan politoloqlarının, daim nədənsə narazı qalan "ağıllıların", özəlliklə "müxalifət lideri" deyilən fərdlərin Rusiya sülhməramlıları ətrafında sərgilədikləri hay-küyləri arxasında dar, təhlildən kənar düşüncələrin dayanması şübhəsizdir.

Beləliklə, məhz ermənilərin hansı "düşüncəyə" malik olduqlarını nəzərə alaraq bu gün bölgədə fəaliyyət göstərən Rusiya sülhməramlıları üzərlərinə düşən öhdəliklərini yerinə yetirməkdədirlər. O cümlədən, qardaş Türkiyə hərbi kontingentinin (hələlik, mühəndis-istehkamçılarının və minaaxtaranlarının) də burada fəaliyyətə başlaması məsələsində bənzər faktorlar dayanmaqdadır. Bu gün bəzi divan politoloqlarının, siyasətbazlarının, daim nədənsə narazı qalan "ağıllıların" özəlliklə "müxalifət lideri" deyilən fərdlərin Rusiya sülhməramlıları ətrafında sərgilədikləri haykülyləri arxasında dar, təhlildən kənar düşüncələrin dayanması şübhəsizdir. Əldə heç bir fakt, sübut olmadan guya Xankəndinin və s. ermənlərin daha çox məskunlaşdıqları ərazilərin guya yenidən "respublika" adı altında onlara peşkəş ediləcəyi barədə səslənən sərsəm fikirlər isə, ilk növbədə, torpaqlarımız uğrunda qanlarını axıdan şəhidlərimizin ruhlarına göstərilən böyük saygısızlıq, dövlət maraqlarına qarşı isə təxribatçılıq və xəyanətdir!

### Xain vətənşivənlər bilmirlərmi ki, üçrəngli bayrağımız Xankəndinin düz ortasında dalğalanacaq?!

Gəlin məsələyə digər müstəvidən yanaşaq. Rusiya sülhməramlıları Dağlıq Qarabağa əvvəlcə İrəvandakı "Erebuni" hava limanından gəlməyə başladılar. Lakin bu prosesdən sonra sülhməramlılara aid olan müxtəlif vasitələr və texnikalar, təchizatlar artıq Azərbaycan üzərindən Xankəndinə doğru yönəldilir - Fövqəladə Hallar Nazirliyimizin və Hərbi Polisimizin müşayiəti ilə dəmir yolu ilə gətirilən humanitar və s. məqsədli yüklər Xankəndinə doğru istiqamət alır. Məhz bu faktın ardınca heç bir əsası olmayan düşüncələri ilə sosial şəbəkələrdə siyasi şivənlər qaldıran Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Qənimət Zahid və başqaları bilmirlərmi ki, işğaldan azad olunmuş ərazilərimizin daxilində Xankədi də, digər yerlərimiz də var? Bilirlərmi ki, bu ətrafda gecəli-gündüzlü necə ağır, çətin diplomatik işlər aparılır? Yaxud bilmirlərmi ki, müəyyən tam həll olunmamış kiçik detallar var ki, onlar ətrafında da dəqiq məlumatlar veriləcək, orada yaşayan ermənilər Azərbaycan vətəndaşları olacaq, yaşamaq hüquqları olmayanlar oradan çıxarılacaq, status barədə ümumiyyətlə, söhbət ola bilməz, Azərbaycanın qanunları orada da şamil olunacaq, üçrəngli bayrağımız Xankəndinin düz ortasında dalğalanacaq?! Bilirlər, sadəcə, əllərində başqa "bəhanələr" yoxdur ki, onları da əldə edilən zəfərimizə, qələbəmizə şübhə toxumları səpirlər. Buna görə də mütləq cavab verəcəklər. Guya vətənsevər olublar, amma bugünə qədər xalqın böyük hissəsi belələrini vətənşivən kimi tanıyıb, tanıyır, tanıyacaq da!

### Adıçəkilən trio Türkiyə dövlətinə qarşı da dil uzadır!

Digər faktı xatırladaq. Qardaş Türkiyə dövləti istər hərbdə, istərsə də masada Azərbaycanın yanında olduğunu bəyan edir və eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi, regionda sülhün tam bərqərar olması üçün əlindən gələni əsirgəmədiyini əməli ilə isbatlayır. Bu zaman "türkçü", "millətçi", yaxud daha nələrsə olduqlarını klaviatura arxasında oturmaqla bağıranlar həmin davranışları ilə paralel olaraq bizə tarixi dəstək göstərən qardaş Türkiyə dövlətinə qarşı da necə deyərlər, dil uzadırlar. Məgər buna da xəyanətkarlıq adını vermək olmazmı? Olar, əlbəttə ki!

### Belədirsə, nəyə görə özləri bir dəfə də olsun cəbhə bölgələrinə gedib ən azından mənəvi dəstəklərini göstərmədilər?

Bu gün Cəmil Həsənli, Əli Kərimli, Gültəkin Hacıbəyli dövlətin şəhid ailələrinə, qazilərə belə bir çətin zamanda dəstəyini göstərirsə, həmin dəstəyin "az", ya da çox" olması ətrafında boğazlarını yırtmalarına nə gərək var ki? Dövlət müharibədən çıxıb və buna rəğmən öz gücünü, qüdrətini iqtisadi cəhətdən qoruyub-saxlayıb, üstəlik, pandemiya şəraitində olmasına baxmayaraq, şəhid ailələrinin, qazilərin sosial həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində davamlı addımlarını atır, bunlar isə kirli ağızlarını büzməkdə davam edirlər. Belədirsə, nəyə görə özləri bir dəfə də olsun cəbhə bölgələrinə gedib ən azından mənəvi dəstəklərini göstərmədilər? Təbii ki, buradan da çox şey aydın olur.

### Fransa senatının qərəzli qətnaməsinə niyə etiraz etmədilər?

Aydın olur ki, Fransa senatının qərəzli qətnaməsinə görə siyasi partiya və təşkilatların müştərək bəyanatlarına nəyə görə imza atmadılar, çünki imza atsaydılar, Fransanın erməni lobbisinin dairələrindən alacaqları qrantlarının qarşısı kəsilə bilərdi. Bunun izahını nəyə görə vermirlər, ancaq dövlətin - qalib dövlətin atdığı hər bir addımına qarşı bu qədər siyasi həyasızlıq nümayiş etdirirlər? Bu sualın da cavabı çoxdan bəllidir...

İndi durub Rusiya sülhməramlılarının fəaliyyətlərini təftiş edirlər, guya dövlət, vətən sevənlərdirlər. Halbuki, Laçın rayonu Azərbaycanın Silahlı Qüvvələrinə təhvil verilərkən ermənilərin bir hissəsi oranı tərk etmək istəmirdilər. Amma Rusiya sülhməramlıları müdaxilə edərək, onları Laçından çıxardı, üstəlik qondarma, saxta "dqr" bayrağını da bələdiyyə binasının üzərindən çıxardı. Maraqlıdır, bu fakt barədə niyə susurlar? Bunun yerinə ermənilərin Xankəndində rus sülhməramlılarına tort verdiklərini, rusların isə ermənilərin xidmətində dayanacaqları barədə əfsanələr danışırlar. Məgər Rusiya sülhməramlıları ölkələrinin prezidenti Vladimir Putinin və komandanlıqlarının verdikləri tapşırığın yerinə ermənilərin nazı ilə oynamağamı gedirlər? Axı nəyə görə faktları bu qədər cılızlaşdırıb və ictimai rəydə bu qədər mənfurcasına, hətta erməncəsinə çaşqınlıqlar yaratmağa cəhdlər göstərirlər?

### Gültəkin Hacıbəyli Ordumuzun "sınıq silahları" haqqında danışarkən, Əli Kərimlinin fikirləri erməni KİV-lərini bəzəyirdi, Cəmil Həsənliyə isə heykəl qoyacaqdılar!

Son xatırlatmanı da etmək tam yerinə düşərdi. 2016-cı ildə Aprel zəfərimizdən sonra erməni lobbisindən növbəti sifariş alan bu mənfur trionun nümayəndəsi - Gültəkin Hacıbəyli şanlı Azərbaycan Ordusunun "sınıq silahlarla" düşmənə qarşı döyüşdüyünü arsızcasına bildirmişdi. Hansı ki, həmin vaxt dronlarımız düşmənin başına od yağdırırdı, ən müasir silah və texnikalarımız işğalçını təxribat törətməsinə peşman etmişdi. Bu trionun digər nümayəndəsi - Əli Kərimlinin Ordumuz barəsindəki xain fikirləri Ermənistan KİV-lərinin manşetlərində bərq vururdu.

### Cəmil Həsənliyə isə ermənilər heykəl qoymağa hazırlaşırdılar - Azərbaycan Ordusunun uğurlarına kölgə salması cəhdlərinə görə!

Bax, budur onların xislətləri, milli mənafelərimizə, dövlətçilik maraqlarımıza zərbə vuran düşmənçilik toxumları. Hətta deyərik ki, belələrinin bizə düşmənçilik edən ermənilərdən qətiyyən fərqləri yoxdur. Ona görə də bu cür sərsəm, düşüncəsiz və ürəkbulandırıcı fəaliyyətləri ilə ortalıqda vargəl edirlər. Bunun isə əsas səbəblərindən biri də budur - siyasi meyit olaraq artıq kimsənin marağında deyillər, yoxdurlar, olmayacaqlar. Onlar eyni zamanda unutmamalı və qulaqlarında sırğa etməyə məhkumdurlar: QARABAĞ AZƏRBAYCANDIR!

***Rövşən NURƏDDİNOĞLU***

## Paşinyan öz komandasına da inanmır?




"Nikol Paşinyana eimadsızlıq hər yerdədir, hətta onun komandasında. Ona görə də Paşinyan hərbi vəziyyəti dəyişməkdən imtina edir, belə ki, məhz ondan sonra baş nazirə etimadsızlıq məsələsini qalldırmaq olar". SİA xəbər verir ki, bu barədə "Hraparak" yazır.

Nəşr qeyd edir ki, əgər o komandasının loyallığına inam bəsləsəydi, artıq hərbi rejimi də dəyişə bilərdi. Ancaq o hesab edir ki, deputat çoxğluğu ona sürpriz edərək, impiçment qərarını verə bilər.

"Bizə dedilər ki, hərbi rejimə aid olan bütün məhdudiyyətlər addım-addım aradan qaldırılacaq", yazan erməni nəşri qeyd edir ki, artıq mitinqlərin keçirilməsinə və KİV-lərin dərcinə dair məhdudiyyətlər fəaliyyətdə deyil, növbəti addım ölkəni tərk etmək izninin bərpası ilə bağlı olacaq.

"Ancaq hərbi vəziyyət həbrçilərin hərəkəti və digər məqsədlər üçün saxlanılacaq və əsas hədəf baş nazirə etimadsızlıq vorumunun qarşısının alınmasına hesablanıb", "Hraparak" yazır.

***Rövşən RƏSULOV***

# Azərbaycan müharibədə niyə və necə qalıb gəldi?- Rusiya alimi izah edir

***Ermənistan və Azərbaycanın Rusiyanın vasitəçiliyi ilə imzaladığı Qarabağ sülh müqaviləsi müharibənin isti mərhələsinə son qoydu. Qarabağ münaqişəsi, oradakı zonasındakı status-kvonu dəyişdi, bu münaqişə ətrafında gedən döyüş əməliyyatları zamanı ortaya çıxan yeni reallıqlar yaratdı və tərəflərin öhdəliklərinə əməl etdikləri təqdirdə münaqişənin sona çatması perspektivini açdı.***



Niyə Azərbaycan bu müharibəni qazandı? Sankt-Peterburq Dövlət Universitetinin "Postsovet məkanında beynəlxalq münasibətlər" kafedrasının professoru, tarix elmləri doktoru Niyazi Niyazov Pravda.Ru tv studiyasında fikirlərini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.

- 94-cü il atəşkəs razılaşması imzalanandan sonra Azərbaycan bu müharibəyə hazırlaşırdı. Azərbaycan lap başdan bəyan etdi ki, münaqişənin sülh yolu ilə həlli üçün göstərdiyi səylər problemin həllinə gətirib çıxarmazsa, müharibə qaçılmaz olacaqdır. Tərəflər bir neçə dəfə, o cümlədən Rusiyanın vasitəçiliyi ilə, münaqişənin həlli üçün məşhur "Kazan formulu", "Lavrov planı" ilə bağlı razılığa gəlməyə yaxın idilər.

Lakin Paşinyan Ermənistanda hakimiyyətə gəldikdən sonra bütün danışıqlar prosesi məhv edildi. Deyək ki, sonda onun qeyri-uzaqgörən və təxribat xarakterli açıqlamaları, 27 sentyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların yenidən başlamasına zəmin yaratdı.

Bu vaxta qədər Ermənistanın hərbi mütəxəssisləri və Rusiya, Fransa, Amerikadan olan bir sıra hərbi mütəxəssislərin dediklərinin əksinə olaraq, Azərbaycan ordusu bu müharibəyə çox diqqətlə hazırlaşırdı- yeni nəsil texnologiyalar cəhətdən də.

İndi bunu bütün mütəxəssislər qeyd edirlər. Müasir döyüş sistemlərində, ordunu yüksək texnoloji tamamilə yeni silahlarla təchiz edilməsinə üstünlük verildi, hansı ki, bir çox müasir texnoloji sistemlər dünyanın heç bir ordusunda yoxdur.

Çoxlu sayda xüsusi təyinatlı qüvvələrin hərtərəfli hazırlığı sayəsində Azərbaycan ordusu erməni tərəfinin bütün bu işğal illərində qurduğu güclü müdafiə xəttinin öhdəsindən gəldi. Tərifli "Ohanyan" xəttini qırmağa və əməliyyatı həyata keçirməyə müvəffəq oldular, bunun nəticəsində, faktiki olaraq, nəinki Qarabağda yerləşdirilmiş, həm də Ermənistanın özündən oraya köçürülmüş erməni silahlı qüvvələrinin əhəmiyyətli bir hissəsi məğlub oldu.

Vəziyyət erməni tərəfi üçün kritik idi, Prezident Putin bunu açıq şəkildə bildirdi və Rusiyanın mövqeyi olmasaydı, erməni tərəfi daha böyük itkilər verəcəkdi.

### Bunun bir neçə səbəb var. 2 əsasını ayırmaq istərdim:

1. İqtisadiyyatı müharibəyə hazırlamaq. Azərbaycan yalnız neft ehtiyatlarının satışı ilə məşğul olmamış, həm də iqtisadiyyatın bütün sistemini məqsədyönlü şəkildə təkmilləşdirmişdir. Əlbətdə qüsurlar var idi. İlham Əliyev özü bunu bildirdi;

2. Öz silahlı qüvvələrinin inkişafına və yalnız silahların alınmasına deyil, həm də öz müəssisələrində bir çox silah növünün istehsalına, öz hərbi-sənaye kompleksinin yaradılmasına ciddi diqqət verdi.

### Azərbaycan ən son silahları haradan alır?

Və bu vəziyyətdə Azərbaycan üçün ən vacib şey, hərbi əməkdaşlıq sahəsində özünə ciddi müttəfiqlər tapmağı bacarması və bunların arasında Azərbaycan ordusunun əsas silah təchizatçısı olan Rusiyanın da olması idi.

Bundan əlavə, döyüş sistemlərinin tədarükü üçün kəmiyyət baxımından götürsək, bir nöqtədə 90-cı illərdə bütün silahların çoxunu Azərbaycana satan Ukrayna idi. Ancaq bunu bir daha vurğulayıram, bu, 90-cı illərdə idi və 2000-ci illərdən bəri Rusiya inamla hərbi təchizatı öz əlinə aldı. Bundan başqa, Belarusiya və İsraildən də müəyyən silah texnika alındı. İsrail müasir pilotsuz təyyarələrin tədarükünün əsas mənbəyinə çevrilib.

Sonra türklər də Azərbaycan ordusu üçün silah təchizatçılarından biri oldular. Bunlar əsasən, polis qüvvələri üçün yüngül zirehli nəqliyyat vasitələridir. Və bu münaqişənin isti mərhələsində də fəal iştirak edən "Bayraktar TB2" dronları.

### Türkiyə nə rol oynadı?

- Sizin nöqteyi nəzərinizdə Türkiyənin iştirakı, aparıcı rolu, informasiya sahəsindəki dəstəyi burada nə kimi rol oynadı?

- Türkiyənin dəstəyi həmişə olub. Başqa bir məsələdir ki, Türkiyə NATO-nun çox itaətkar üzvü kimi ondan güclü bir şəkildə asılı idi və Qərb tərəfdarı idi, Avropa İttifaqına daxil olmaq üçün hər vasitə ilə Vaşinqtondan, Brüsseldən gələn bütün məzəmmətləri dinləməyə hazır idi- Türkiyə faktiki olaraq Azərbaycana kömək etmədi.

Məlumdur ki, 1-ci Qarabağ müharibəsi zamanı Türkiyə Brüsselin narazılığından qorxduğu üçün Azərbaycana bir dənə də olsun hərbi texnika satmadı, hətta kiçik silahlar da satmadı.

Zamanla, Türkiyənin öz iqtisadiyyatında ciddi bir modernizasiya həyata keçirməsindən sonra, xüsusilə Ərdoğanın partiyası hakimiyyətə gəldikdən sonra daha müstəqil bir yol tutmağa başladı.

Bu kursun istiqamətlərindən biri, əlbəttə ki, münasibətlərdə eniş-yoxuş yaşanan Rusiya ilə aktiv bir yaxınlaşma idi. Bunu nə Türkiyə rəhbərliyi, nə də Rusiya rəhbərliyi gizlədir. İstiqamətlərdən biri Rusiya ilə qarşılıqlı yaxın əməkdaşlıq olduqda, o andan etibarən Türkiyə Qarabağ münaqişəsində daha fəal mövqe tutdu və Azərbaycana dəstək verdi.

Ancaq əsasən, bir daha vurğulayıram, bu, əsasən uzun müddət müxtəlif beynəlxalq təşkilatlarda siyasi dəstək idi. İqtisadi dəstək belə çox deyildi, çünki bu çoxlarına paradoksal görünə bilər- Azərbaycanın Türkiyədəki investisiyaları Türkiyənin Azərbaycandakı investisiyalarından qat-qat çoxdur.

### Azərbaycanın kiçik bir ölkə üçün çox pulu var

Bu gün bu ölkənin qızıl-valyuta ehtiyatları təqribən 50 milyard dollar olaraq qiymətləndirilir, 10 milyonluq bir əhali üçün bu böyük bir rəqəmdir, daha da inkişaf etmiş Avropa ölkələrində belə bu həcmdə qızıl-valyuta ehtiyatları yoxdur.

Buna görə də bölgədə maraqları olan, ilk növbədə orada fəal inkişaf edən enerji və nəqliyyat və logistika layihələrinin icrası ilə əlaqəli olan Türkiyə artıq Azərbaycana hərbi-texniki yardım göstərməyə və haqqında danışdığım pilotsuz təyyarələr verməyə başladı.

Bundan əvvəl Türkiyənin hərbi yardımı əsasən zabitlər və xüsusi təyinatlıların təhsili ilə məhdudlaşırdı. Üstəlik, bu təlim hətta Azərbaycan ərazisində də aparılmamışdı; bir çox azərbaycanlı zabitlər və əsgərlər Türkiyənin müvafiq təhsil müəssisələrində oxudular. Bununla yanaşı, Rusiya və Amerika da daxil olmaqla digər ölkələrin hərbi təhsil müəssisələrində də eyni şeyi etdilər. Bu, məqsədli hazırlıq idi.

*Tərcümə etdi: Elçin Bayramlı*

## İki erməni hərbçisi partlayışda öldü



Dağlıq Qarabağ rejiminin məğlub silahlılarından ikisi 1 dekabr tarixində sursat partlaması nəticəsində məhv olub. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə informasiya Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti tərəfindən təsdiqlənib. Verilən məlumata görə, hadisə şərq istiqamətindəki postlardan birində döyüş sursatlarının çıxarılması zamanı baş verib. Bildirilir ki, 19 yaşlı hərbçilər Jirayr Matevosyan və Qeqam Ovannisyan ölüb.Faktla bağlı araşdırma aparılır.

## Mikael Minasyan: "Nikolizm Ermənistanı xarabalığa çevirdi"



Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan general-mayor Vitali Balasanyanın mesajına cavablandırıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə keçmiş səfir öz sosial şəbəkə hesabında paylaşım edib.

"Vitali Balasanyanın məktubunu oxudum. General, deyəsən fikrini bitirməyib. Son təklif çatışmır. Belə ki, Arayik və Nikolun xain olduqları bildirilmir. Siz vətən xaininin arxasına sığınan bir şəxsə əl uzatmaq istəyirsiz? Pedofil ilə bir uşaq bağçası açmaq istəyirsiz? Nikolizm Ermənistanı xarabalığa çevirdi. Nikolizmin mərkəzində yaddaşın olmaması dayanır. Ancaq bu dəfə xatirələri silmək mümkün olmayacaq. Nikolun və onun silahdaşlarının satıldığını açıqlayın, elan edin və ya tək qalın", deyə Mikael Minasyan öz Facebook səhifəsində yazıb.

***İnam Hacıyev***

***Ermənilərin saxtakar tarixçiləri daim iddia edirlər ki, guya ermənilər qədimdən Qafqazda məskunlaşıb və bu torpaqlarda olan qədim mədəniyyət, tarixi abidələr, dini məbədlər onlara məxsusdur. Halbuki, tarix elmi bunun tam əksini göstərir. Əvvəlki yazılarımızda, Albaniyasının tarixi, mədəniyyəti. Etnik və dini ətrkibi haqda ətraflı məlumat vermişik. Daha bir qədim dövlətimiz olan Atropatena ilə bağlı 1-ci yazımızda isə Atropatenanın qədim tarixi, mədəniyyəti, etnik tərkibi haqda ümumi məlumat vermişik. Bu yazıda isə, hazırda adını daşıdığımız bu qədim dövlətimizdə həmin dövrdə bərqərar olan zərdüştlüklə yanaşı, xristian dininin də yayılması və bu dinlərə mənsub olanların kimlər olduğu haqda məlumat verəcəyik.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Atropatena: zərdüştlük və xristianlıq kimin tarixi irsidir?



## Atropatena-Azərbaycan haqda antik tarixçilər nə yazır?

Atropatena tarixi haqqında Sasani hökmdarı I Şapur (240-270) tərəfindən Kəbeyi Zərdüştdə yazılmış kitabədə ən qədim yazılı hesab olunur. Yunan və latın dilində olan antik dövr mənbələri Atropatena, onun əhalisi və sairə ilə bağlı nisbətən ətraflı məlumat var. O cümlədən Herodot, Miletli Hekatey, Strabon, Tatsit, Plutarx, Plini və başqalarının əsərlərində Atropatena haqqında məlumatlara təsadüf edilir.

Atropatena haqqında ilk dəfə ətraflı məlumat verən Amasiyalı Strabon (e.ə. I əsr- b.e. I əsri) olmuşdur. Strabon Atropatenanın ərazisi, əhalisi, təsərrüfatı, sakinlərinin etnik tərkibi, məşğuliyyəti, hərbi qüdrəti, qoşunları, adət və ənənələri barədə maraqlı məlumatlar məlumat verib.

Xeyli sayda İran tarixçisi, tədqiqatçısı və əbədiyyatçısı da öz əsərlərində Atropatenanın sərhədləri, faydalı qazıntıları, şəhərləri, tarixi coğrafiyası, sakinlərinin etnik tərkibi, dili, dini görüşü, maddi mədəniyyəti, habelə siyasi tarixi haqqında məlumat veriblər.

Məhəmmədhəsən xan Marağayi yazır: "Azərbaycan xüsusi müstəqil şahlığa malik idi. Belə ki, Böyük İskəndərin dövründən burda şahlar hökmdarlıq edib və müstəqil olmuşlar. Azərbaycan şahları eramızın 30-cu ilinə qədər öz istiqlaliyyətlərini tam şəkildə saxlaya bilmişlər. Parfiya şahı Azərbaycan şahının Mark Antoniyə kömək göstərdiyini bəhanə edərək Azərbaycan ərazisinə hücum edib qələbə çalmışdır".

Məşhur İran şərqşünası Səid Nəfisi yazır: "Parfların dövründə Atropaten ölkəsi bir müddət daxili müstəqilliyə sahib olmaqla bərabər parfiyalılardan asılı idi. Beləliklə, eramızın II əsrinin yarısına qədər öz istiqlaliyyətini qoruyub saxlaya bilmişdir. Eramızın II əsrindən etibarən bu ölkə Azərbaykan adlanıb".

Müəllif fikrini belə ifadə edir: "Ehtimal ki, eramızın 227-ci ilndən etibarən bu ərazi Sasanilərin nüfuz dairəsinə daxil edildikdən sonra İranın Şimal-Qərb hissəsinə bütövlükdə Azərbaycan adı verilmişdir. Belə ki, ora VI əsrdən Nəsturilərin dini mərkəzi olmuş və Suriya mənbələrində də bu ərazi Azərbaycan kimi adlandırılmışdır. Abbasi xəlifələrinin dövründə də bu əyalət Azərbaycan adlanırdı".

## Atropatena- ilk təktanrılı dinlərdən birinin vətəni

Dünyanın ən qədim təktanrılı dinlərindən birini təbliğ edən Zərdüşt peyğəmbərin Urmiya ətrafında yaşadığı və onun müqəddəs kitabı olan Avestanın da burada bərqərar olduğunu antik mənbələr təsdiq edir.

Miletli Hekatey (e.ə. VI-V əsrlər) "Yerin təsviri" adlı əsərində Atropatena ərazisində yaşayan tayfalar (xüsusilə, maqlar) haqqında maraqlı məlumatlar verib. Maqların, zərdüşt kahinləri olduğu və həm Atropatenada, həm də Albaniyada zərdüştlüyün hakim din olduğunu antik tarixçilər qeyd edir.

Səid Nəfisi bu haqda yazır: "Çox ehtimal ki, Sasanilər dövründə bir neçə ən mühüm atəşgahın bu əyalətdə olması ilə əlqədar olaraq Azərbaycan Zərdüştün vətəni kimi tanınmışdır".

Sasanilər dövründə Azərbaycanın istər dini mərkəz olması, istərsə də təbii-coğrafi mövqeyi onun daha da şöhrətlənməsinə səbəb olmuşdur. Bu haqda A.Kristensen yazır: "Burada olan atəşgah Ərdəşir tərəfindən təmir edilərək əsas ziyarətgaha çevrildi".

Sasani şahlarının tacqoyma mərasimi zamanı paytaxt Mədaindən Azərbaycanın paytaxtı Qazakaya piyada gəlmələri də o dövrdə Azərbaycanın dini mərkəz olmasını sübut edir. Zərdüştlük dini, Avesta təlimi buradan bütün şərqə yayıldı. Ərəb Xilafətinin bu ərazilər işğalı nəticəsində islamın yerli əhaliyə zorla qəbul etdirilməsindən sonra zərdüştülər Hindistana köç etsələr də, bu gün də qədim Atropatena ərazisində (müasir İranın şimalında) kiçik zərdüştü icmaları öz qədim dinlərini qoruyub saxlayır. Azərbaycanın həm şimalında, həm cənubunda bu dinin məbədləri və ya qalıqları hələ də qalır. Bakıdakı Atəşgah məbədi də onlardan biridir.

## Atropatenada xristianlıq necə yayıldı?

Adurbadaqanda (Atropatenada) xristianlıq haqqında ilk yazılı qeyd 420-ci ildə katolikos Yabalahın dövründə (415-419) çağırılmış sinodun aktlarında qorunub saxlanıb. Lakin bu faktın özü xristianlığın burada mövcud olan çoxdankı ənənələri haqqında ehtimal yürütmək imkanını verir; belə ki, yeni dinin yayılması üçün zəmin olmayan yerdə yepiskopluq yarana bilməzdi.

Albaniyada olduğu kimi, Adurbadaqanda da xristian kilsəsi feodal münasibətlərinin yarandığı dövrdə meydana çıxıb. Mənbələrdə "ilk Şərq" həvarisi adlanan Müqəddəs Fomanın artıq eramızın ilk əsrində midiyalılar və farslar arasında dini təbliğat aparması haqqında faktlar az deyil. İsanın meracının 2-ci ilində, o, Hindistana gedərkən, yolüstü parfiyalılar, midiyalılar, farslar, baktriyalılar, markianlar arasında təbliğat aparmışdı. Siryani mənbələrinin yazdığına görə, Gilan əhalisi xristianlığı həvari Addaydan qəbul etmişdi, Deyləmdə isə artıq 224-cü ildə yepiskopluq vardı.

Ən əvvəl xristianlıq Suriyada, Kiçik Asiyada və Yunanıstanda, sonra isə parfiyalılar arasında yayılmağa başladı. Daha sonra xristian təbliğatı Persiyaya, Midiyaya, Baktriyaya doğru hərəkət edərək, Hindistana qədər gedib çatdı.

İsa peyğəmbərin digər şagirdi, İncilin müəlliflərindən biri hesab edilən həvari Müqəddəs Matfey Ekbatan (qədim Həmədan), Rey və Damağanda təbliğat aparmışdı. Ktesifon şəhərində yepiskop kafedrası öz əhəmiyyətinə görə o dövrün xristian dünyasında mühüm yer tutur, onun yepiskopları isə Roma, Antakiya, İsgəndəriyyə və Karfagen yepiskopları ilə bir səviyyədə sayılırdı.

Parfiya və Sasani dövlətlərində (o cümlədən Adurbadaqanda) xristian icmaları təkcə İncil təliminin yayılması hesabına deyil, bu ərazidə çoxdan bəri yaşayan xristian-suriyalılara görə yayıldı.

Katolikosun oturduğu Ktesifon şəhərinin yerləşdiyi Bet Arameye (Qədim Babilistan) imperiyanın əsas vilayəti idi. Bundan sonra iyerarxiya sırası ilə arxiyepiskopluqlar gəlirdi. Mənbələr Ərbil, Həzz, Aşur və Mosul arxiyepiskopuna tabe olanlar sırasında Azərbaycan yepiskopunun da adını çəkirlər. Bu arxiyepiskop katolikosun seçilməsi və təyin edilməsində iştirak edən arxiyepiskoplar sırasında idi. Siryani mənbələrin məlumatına görə, Arran (Albaniya) yepiskopluğu belə hüquqa malik deyildi.

Mənbələrin məlumatına görə, Albaniyanın da daxil olduğu Adurbadaqan kustunun (canişinliyinin) tarixi Azərbaycana aid ərazisində Şərqi Suriya kilsəsinin aşağıdakı yepiskopluqları vardı: Partav - V əsrdən, Paytakaran - VI əsrdən, Adurbadaqan - V əsrdən, Qanzak - V əsrdən, Urmiya - IV əsrdən, Salmas - XIII əsrdən, Marağa - XIII əsrdən, Təbriz - XIII əsrdən, Uşnu - XIII əsrdən, Muğan - VIII əsrdən, IX əsrdən isə mitropoliya.

## Azərbaycanda xristianlıq haqda antik mənbələr nə deyir?

Azərbaycanda xristianlıq haqqında ən erkən məlumat verən V əsrin əvvəllərinə dair, yuxarıda adını çəkdiyimiz, sinod sənədlərində katolikos Mar Yabalaha dini cəhətdən tabe olan vilayətlər sırasında Arran, Azərbaycan, İberiya və Ermənistan (Şərqi Anadolu) da vardır.

Mənbələr V-VII əsrlərdə Adurbadaqanda yepiskopluq etmiş bir neçə kilsə xadiminin adlarını çəkir. Bunlardan "Qanzakın və Adurbadaqanın" yepiskopu Osiy (Yelisey) 486-cı ildə patriarx Akak tərəfindən çağırılmış kilsə məclisində iştirak etmişdi. Məclisdə qəbul edilmiş aktı imzalayanlar arasında onun da imzası var: "Mən Adurbadaqanda olan Qanzakın yepiskopu Osiy, burada yazılanlarla həmrəyliyimi bildirir, öz imzamı və möhürümü qoyuram".

Osiydən sonrakı yepiskoplardan İohannın imzasını katolikos I Mar Abanın (536-552) 544-cü ilə aid məktublarında görmək olur. O zaman I Mar Aba Adurbadaqan rustaqlarından olan Peraxravarın (Burxuvarın) bir kəndində sürgündə idi. 549-550-ci ilin qışında obu kəndi tərk edərək, I Xosrovun hüzuruna yollanmışdı. Onu Adurbadaqan yepiskopu İohann müşayiət edirdi. İohanndan sonra Melxisidək Adurbadaqan yepiskopu olmuşdu. 544-cü ildə Mar İosifin (552-567) patriarxlığı dövründə çağırılan sinodun qərarlarını imzalayanlar arasında onun da adı var.

Adurbadaqan yepiskopu Xenanişo 605-ci ildə Qriqorinin katolikos seçkisində iştirak etmişdir. Yerli də olsa, görünür, sonralar yaranmış ənənəyə görə Urmiya şəhəri ərazisində hələ apostolların vaxtında xristianlıq meydana gəlmişdi.

Nestori təliminin ardıcılı olan katolikos I Timofeyin (780-825) cəhdi ilə VIII əsrin lap sonlarında Muğanda da yepiskopluq təsis edildi. Rahib İliya yepiskop seçildi. İliyanın cəhdləri ilə Muğan əhalisi xristianlığı qəbul etdi. Mənbənin yazdığına görə, "...onlar cah-calallı kilsə binasının tikintisinə başladılar, sər-sahman işlərinə Mar İliyanın özü başçılıq edirdi. O, çoxlarını xaç suyuna çəkdi, onlar üçün keşiş və dyakonlar təyin etdi, zəbur surəsini yazdı. Getdikcə onlar (xristianlar)... çoxaldılar".

Göründüyü kimi, Cənubi Qafqazda və Şimali İranda, yəni Azərbaycan xalqının min illərdir yaşadığı ərazilərdəki xrsitianlıq irsi, İsa məbədləri ermənilərə yox. azərbaycanlılara məxsusdur. Azərbaycan xalqının ulu babaları dünyanın ilk xristianlarından olmuşlar. Bu səbəbdən, Qafqazda, xüsusən də Azərbaycan və Ermənistan ərazisindəki bütün qədim dini məbədlər, mədəni abidələr Azərbaycan xalqının tarixi irsi kimi qorunub saxlanmalıdır.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

3 dekabr

Son səhifə

## Ronaldo “Golden Foot” mükafatına layiq görülüb




***“Golden Foot” mükafatının sahibi müəyyənləşib. AZƏRTAC xəbər verir ki, “Yuventus”un hücumçusu Kriştiano Ronaldo futbolun inkişafındakı xüsusi xidmətlərinə görə bu mükafata layiq görülüb.***

Portuqaliya milisinin üzvü və İtaliya çempionu 29 yaşdan yuxarı oyunçular arasında ən yaxşı futbolçu seçilib. O, azarkeşlər arasında keçirilmiş səsverməyə əsasən, Lionel Messi (Barselona), Robert Levandovski (Bavariya), Neymar (PSJ) kimi tanınmış futbolçuları üstələyib.

## Zidan:”İstefa verməyəcəyəm”

“Real”ın baş məşqçisi Zinəddin Zidan istefa verəcəyi barədə yayılan xəbərlərə münasibət bildirib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, 48 yaşlı mütəxəssis Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turunda “Şaxtyor”a məğlub olduqları matçdan (0:2) sonra açıqlamasında komandadan getməyəcəyini deyib: “İstefa verməyəcəyəm. Belə bir şeyi düşünmürəm. Çətin zamanlar keçiririk. İstədiyimiz nəticələri əldə edə bilmirik. Amma davam etmək məcburiyyətindəyik. Oyunçulara da, özümə də güvənirəm. Yetəri qədər gücümüz var. “Şaxtyor”la görüşdə qalib gəlməyə layiq idik. Amma belə olmadı. İşləməyə davam etməkdən və pis gedişatı xeyrimizə dəyişməkdən başqa çarəmiz yoxdur”.

Qeyd edək ki, Madrid təmsilçisi B qrupunda 7 xalla 3-cüdür. La Liqada 3 həftədir qalib gələ bilməyən “kral klubu” 17 xalla 4-cü pillədə qərarlaşıb.



## Sabiq dünya çempionu Mayk Taysonu döyüşə çağırıb



**Boks üzrə sabiq dünya çempionu Evander Holifild Mayk Taysonu döyüşə çağırıb. AZƏRTAC xəbər verir ki, bu barədə “MMA Fighting” portalında məlumat verilib. Mayk Tayson bu yaxınlarda Roy Consla qarşılaşmanı heç-heçə ilə başa vurub. E.Holifild M.Taysonla 1996-1997-ci illər arasında keçirdiyi hər iki döyüşdə qalib gəlib.**

**Xatırladaq ki, 1997-ci ildə E.Holifildə qarşı revanş matçında M.Tayson rəqibinin qulağını dişləyərək bir hissəsini qoparıb. Döyüş dayandırılıb və amerikalı ağırçəkili boksçu 3 milyon dollar cərimə olunmaqla, həm də diskvalifikasiya edilib. Evander Holifild son döyüşünü 2011-ci ildə keçirib və aktivində 44 qələbə və 10 məğlubiyyət var. “Dəmir Mayk” ləqəbli M.Tayson isə peşəkar karyerasını 2005-ci ildə bitirib. O, karyerası ərzində 58 döyüş keçirib, onların 50-də qələbə (44-ü nokautla) qazanıb, 6-dan məğlub ayrılıb.**

## Rıza Çalımbay koronavirusa yoluxub



***“Qarabağ”ın Avropa Liqasının qrup mərhələsində rəqiblərindən olan “Sivasspor”un baş məşqçisi Rıza Çalımbay koronavirusa yoluxub. Bu barədə 57 yaşlı mütəxəssis rəsmi tvitter hesabında paylaşım edib. O, test nəticəsinin müsbət olduğunu bildirib.***

Karantinə alınan Çalımbay “Vilyarreal”la oyunda komandasına rəhbərlik etməyəcək. Qeyd edək ki. “Sivasspor” 5-ci turda evdə İspaniya “Vilyarreal”ını qəbul edəcək. Qarşılaşma dekabrın 3-də Bakı vaxtı ilə saat 21:55-də başlayacaq.

## Narkotik alverçiləri tutuldu



Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Lənkəran rayonunun Ləj kənd sakini M.Baxşıyevdən 235 qrama yaxın heroin və 3 qramdan artıq metamfetamin götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Lənkəran ŞRPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Ləj kənd sakini M.Baxşıyev saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib.

Davam etdirilən tədbirlərlə narkotik vasitəni ona vermiş həmkəndlisi T.Xanmədov da müəyyən edilərək saxlanılıb. Şəxsi axtarış zamanı ondan 235 qrama yaxın heroin və 3 qramdan artıq metamfetamin götürülüb.

## Bakıda bıçaqlanma hadisəsi baş verib



Paytaxt sakininə xəsarət yetirən şəxs saxlanılıb. Bu haqda Daxili İşlər Nazirliyindən Xezerxeber.az-a məlumat verilib. Bildirilir ki, noyabrın 13-də Sabunçu rayonunun Pirşağı qəsəbəsi ərazisində qəsəbə sakini A.Əlixanovun qarın nahiyəsindən kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilməsi barədə 15-ci Polis Bölməsinə daxil olan məlumatla əlaqədar dərhal müvafiq tədbirlər həyata keçirilib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində bu cinayət əməlini törətməkdə şübhəli bilinən A.Şahverdiyev müəyyən edilərək saxlanılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**